

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 14 (24.500)

18 aprel 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Azərbaycan:

## qlobal arenada fəal humanitar aktor kimi çıxış edən etibarlı tərəfdaş



*Beynəlxalq münasibətlər sistemində humanitar yardım siyasəti dövlətlərin qlobal məsuliyyət hissini artıran, mənəvi dəyərlərə bağlılığını və beynəlxalq həmrəyliyə verdiyi töhfəni müəyyən edən əsas istiqamətlərdən biridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan son illərdə bu sahədə ardıcıl və məqsədyönlü siyasət həyata keçirərək beynəlxalq səviyyədə fəal, etibarlı və barışdırıcı aktor kimi mövqeyini daha da möhkəmləndirib. Müqayisə üçün qeyd etmək yerinə düşər ki, müstəqilliyinin ilk illərində özü humanitar yardıma ehtiyac duyan respublikamız sonrakı dövrdə aparılan sistemli tədbirlər və nail olduğu iqtisadi inkişaf nəticəsində donor ölkəyə çevrilməyi bacarıb. Bu transformasiya, eyni zamanda beynəlxalq əməkdaşlığın genişlənməsi və fəal xarici siyasətin real göstəricisi kimi dəyərləndirilə bilər. Azərbaycanın humanitar fəaliyyətləri sistemli xarakter daşıyır və bu sahədə əsas institusional mexanizmlərdən biri Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyidir. Bu qurum vasitəsilə dünyanın müxtəlif regionlarında humanitar və inkişafyönümlü layihələr həyata keçirilir.*

Səhifə ➡ 3

# Qarabağda insanların məşğulluğu xüsusi diqqətdə saxlanılır



Səhifə ➡ 4



# Ümummilli Lider Heydər Əliyevin liderliyi ilə başlanan əzəmətli tarix

**Xalqın məhəbbətini qazanmaq hər kəsə nəsib olmur. Azərbaycanda hakimiyyətə çoxları gəlib-gedib. Onlardan heç birinə xalq tərəfindən Ulu Öndər Heydər Əliyev qədər sevilmək səadəti nəsib olmayıb. Bu ümumxalq məhəbbətinin arxasında böyük siyasət və böyük işlər dayanır. "Azərbaycanın bəxti onda gətirib ki, tarixinin ən mürəkkəb və həlledici məqamında ona Heydər Əliyev rəhbərlik edib" – dünyanın məşhur siyasətçilərindən birinin dediyi bu sözlərdə danılmaz həqiqət var. Dahi şəxsiyyət Heydər Əliyev, sözün əsl mənasında, xalqımızın bəxtinə düşən Tanrı payı idi. Həyatının son dəqiqəsinədək xalqının gələcək taleyi haqqında düşünən Ümummilli Liderimiz bizə müstəqil, dünyada öz sözü və yeri olan Azərbaycan qoyub getdi.**

*"Heydər-xalq, xalq-Heydər birliyi əbədidir"* deyimi xalqımızın, Vətənimizin və onun əvəzedilməz liderinin birliyinin, ayrılmazlığının ifadəsidir. Bütün həyatını canından çox istədiyi xalqının yolunda şam kimi əridən Ulu Öndər, ***"Mən fəxr edirəm ki, mən azərbaycanlıyam"***, – deyən, xalqımızın mənəvi-əxlaqi keyfiyyətlərini özündə birləşdirən dahi siyasətçi xalqımızı firavan günlərə çıxartdı. Dünyada elə bir dövlət xadimi, tanınmış siyasətçi yoxdur ki, onun siyasi nəhəngliyini, liderlik qüdrətini etiraf etməsin. Dünyanın böyük siyasi liderləri Heydər Əliyevi əsrin lideri sayırdılar. Eduard Şevardnadze deyirdi: *"XX əsr liderlər əsridir. Əsrin lideri Heydər Əliyevdir"*. Keçmiş ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Zbiqnev Bzejinski isə fikrini belə ifadə edib: *"Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət – bir sözlə, şəksiz liderdir"*. Bu fikirlərin sayını istənilən qədər artırmaq olar. Çünki dünyada tanınan elə bir siyasi xadim yoxdur ki, Ümummilli Liderimiz haqqında belə heyrətamiz fikirlər söyləməsin. Nikolay Baybakov yazırdı ki, *"Mən Azərbaycanı, Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram!"*

Bu Onun ictimai-siyasi fəaliyyətinə verilən qiymətdir. Amma "Heydər Əliyev sadəliyi", "Heydər Əliyev səmimiyyəti" deyilən məqamlar da var ki, bunlarsız böyük liderin tam portretini tamamlamaq qeyri-mümkündür. Dahi şəxsiyyət Heydər Əliyev dünənin və bu günün adamı deyil. O daha çox gələcəyin adamıdır. Çünki gördüyü işlər firavan gələcək üçün hesablanmış binanın təməlidir. Bu səbəbdən *"Heydər Əliyev Azərbaycan dövlətinin memarıdır"* ifadəsi çox dəqiqdir. Həyatımızın elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyev qayğısını, Heydər Əliyev nəfəsini hiss etməyəsən.

Ölkənin bütün bölgələrini inkişaf etdirən, binalar tikdirən, körpülər saldıran, heykəllər ucaltdıran Heydər Əliyev sovet dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə azərbaycanlıların qəlbində silinməz izlər buraxan xidmətlər göstərmişdir. Bu da bəllidir ki, Heydər Əliyevədək Azərbaycan durğunluq içərisində yaşayırdı. Unudulmaz rəhbər bütün imkanlarını səfərbər edərək Azərbaycanın müstəqil yaşaya bilməsi üçün lazım olan işləri imperiyanın vəsaiti hesabına gördü. Müstəqil energetika sisteminin yaradılması, neft sektorunun inkişafı, neftçıxarma və emal müəssisələrinin tikintisi, sənaye komplekslərinin yaradılması, ittifaq əhəmiyyətli sənaye müəssisələrinin Azərbaycanda salınması, paytaxtda bir-birindən gözəl binaların tikintisi, mədəniyyətimizin dünyada tanınması, səhiyyənin inkişafı, yeni mikrorayonların, qəsəbələrin salınması... Bütün bunları saymaqla qurtaran deyil. 1969-1982-ci illərdə Heydər Əliyev fəaliyyətinin ideyası Azərbaycanın müstəqilliyi üçün möhkəm bünövrə yaratmaq idi.

1993-cü ildə Ulu Öndər Heydər Əliyev Azərbaycanı xaos içərisində qəbul etdi. Xalqına arxalanan, onun səsinə səs verən dahi şəxsiyyət özünəməxsus müdrikliklə parçalanmaq təhlükəsi ilə üzləşmiş bir ölkədə xaosa və anarxiyaya son qoydu, müasir müstəqil Azərbaycan dövlətini yaratdı. Ümummilli Liderimizin çox qısa müddətdə uzaqgörənliklə yaratdığı mükəmməl idarəetmə sistemi Azərbaycanın bir dövlət olaraq iqtisadi, siyasi anlamda möhkəmlənməsinə, dünyanın ən qüdrətli dövlətlərinin strateji tərəfdaşına çevrilməsinə rəvac verdi. Ulu Öndərin hakimiyyətdə olduğu hər bir il Azərbaycanı uğurdan-uğura apardı. Çıxışlarının birində Ulu Öndər deyirdi: ***"Xalqım üçün firavanlıq və əmin-amanlıqdan başqa ayrı bir arzum yoxdur. Bütün varlığımı, bütün qüvvə və bacarığımı mən bu amala həsr etmişəm".*** Öz amalını Ümummilli Lider böyük inamla reallaşdırdı, həqiqi demokratiyanın memarı kimi yaddaşlarda qaldı.

Ulu Öndər Heydər Əliyev bütün ömrünü mənsub olduğu xalqa təmənnasız xidmətdə keçirdi. Hələ gənclik illərindən ideallarında yaşatdığı müstəqil Azərbaycan dövlətçiliyinin dönməzliyini və əbədiliyini təmin etdi. Dahi şəxsiyyət qurub-yaratdığı şah əsəri olan müstəqil Azərbaycanın taleyini Prezident İlham Əliyevə əmanət etdi. Xalqımız Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında daha böyük uğurlar qazanacağına, Azərbaycanın daha güclü və qüdrətli dövlətə çevriləcəyinə ürəkdən inanır. Dövlət başçısının dediyi kimi: ***"Nə qədər Azərbaycan var, Heydər Əliyev olacaqdır. Biz – Ulu Öndərin davamçıları onun yolu ilə gedəcəyik, Azərbaycanı gücləndirəcəyik, müstəqilliyimizi qoruyacağıq".***

## Prezident İlham ƏLİYEV:

*"Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri vardır. Hazırda bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır."*

Bu gün Azərbaycan xalqı öz tarixini Ulu Öndər Heydər Əliyevin siyasi varisi, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyəti, dönməz iradəsi, liderliyi və sərkərdəliyi sayəsində bərqərar edib. Ali Baş Komandan İlham Əliyevin ***"Qarabağ Azərbaycandır!"*** kəlamı və "dəmir yumruq" hesabına Azərbaycan Ordusu bütün dünyaya nümayiş etdirdiyi Qarabağ Zəfəri ilə yeni hərb tarixini yazdı. Cəmi 44 gün ərzində qazanılan qalibiyyət xalq-dövlət-Ali Baş Komandan gerçəkliyinin məntiqi nəticəsi idi. Bu vəhdət, bu birlik dünyanın bütün ölkələrindən heyrətlə izlənildi.

Vətən müharibəsi dövründə dünya birliyi Azərbaycanın öz suverenliyini qorumağa qadir qüdrətli dövlət olduğunu bir daha gördü. Hamıya aydın oldu ki, Vətən müharibəsindəki şanlı qələbə Prezident İlham Əliyevin milli maraqlara söykənən uzaqgörən siyasətinin, güclü lider kimi beynəlxalq aləmdə yüksək nüfuzunun və xalq-dövlət-ordu birliyinin parlaq nəticəsidir. Azərbaycan xalqı Vətən müharibəsində öz Prezidentinin ətrafında sıx səfərbər oldu. Bu baxımdan, 44 günlük savaş həm də xalqımızın milli və siyasi həmrəyliyinin təcəssümünə çevrildi. Hər kəs öz sahəsində bu milli mücadiləyə özünün layiqli töhfəsini verdi. Təbii ki, qələbənin əldə edilməsində müasir ordumuzla yanaşı, güclü iqtisadiyyatımız, milli həmrəylik, iqtidar-xalq birliyi mühüm rol oynadı. Azərbaycan xalqı bir millət olaraq öz varlığını müdafiə etdi. Prezident İlham Əliyev qələbənin əldə edilməsində bu birliyin əhəmiyyətini xüsusi vurğulayaraq deyib: ***"Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Güclü siyasi iradə, xalq-iqtidar birliyi bu planları da alt-üst etdi".***

Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi müstəqillik tariximizin ən əlamətdar hadisəsi oldu. Ali Baş Komandan İlham Əliyevin müəllifliyi, ordumuzun rəşadəti, hərbçilərimizin qəhrəmanlığı hesabına qazanılan bu zəfər müstəqillik tariximizi daha da şərəfləndirdi, xalqımıza fəxarət bəxş etdi. Bu qələbə bir daha təsdiqlədi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır. Dövlət başçısı İlham Əliyevin dediyi kimi: ***"Bizim ölkəmiz üçün yeni dövr başlayır. Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir".***

Ulu Öndər Heydər Əliyev xalqımıza zəngin maddi və mənəvi dəyərlər, siyasi və iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində qurulmuş müstəqil Azərbaycan dövlətini miras qoydu. İnsanların ürəyində çoxdan heykəlləşən Ümummilli Liderimizin xatirəsi Azərbaycan durduqca yaşayacaqdır. Böyük yaradıcı gücə malik olan Heydər Əliyev siyasəti bu gün olduğu kimi, gələcəkdə də Azərbaycanı rifaha və tərəqqiyə qovuşduracaqdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi: ***"Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri vardır. Hazırda bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır".***

✍ **Məhəbbət MİRZƏYEVA**

# Azərbaycan:

## qlobal arenada fəal humanitar aktor kimi çıxış edən etibarlı tərəfdaş



(əvvəli 1-ci səhifədə)

***Azərbaycanın humanitar yardım siyasəti, sadəcə, bəyanatlarla kifayətlənmir, konkret faktlar və real addımlarla özünü təsdiqləyir. Ölkəmiz müxtəlif regionlarda baş verən böhranlara, təbii fəlakətlərə və fövqəladə hallara operativ və məqsədyönlü reaksiya göstərir, bu siyasətin əsas xüsusiyyətlərini praktikada nümayiş etdirir. Xüsusilə COVID-19 pandemiyası zamanı Azərbaycan dünya birliyinə həm maliyyə dəstəyi, həm də tibbi resurslar baxımından əhəmiyyətli töhfələr verib. Respublikamız 80-dən çox ölkəyə qoruyucu tibbi avadanlıqlar, kritik tibbi cihazlar və vaksinlər ianə edərək qlobal pandemiya ilə mübarizədə fəal iştirak edib. Bu faktlar Azərbaycanın yalnız regional deyil, həm də qlobal humanitar məsələlərdə çevik, məsuliyyətli və etibarlı tərəfdaş olduğunu bir daha sübut edir.***

Azərbaycanın, xüsusilə regional münaqişə və müharibələr zamanı dinc sakinlərə dəymiş fəsadların aradan qaldırılmasına yönəlmiş humanitar dəstəyi təqdirəlayiq addım kimi dəyərləndirilir. Bu baxımdan, Rusiya-Ukrayna müharibəsi fonunda Ukraynaya göstərilən humanitar təşəbbüsləri qeyd etmək olar. Belə ki, 2022-2024-cü illər ərzində Ukraynaya, ümumilikdə, on milyonlarla ABŞ dolları dəyərində humanitar yardımlar göstərilib, xüsusilə enerji infrastrukturunun bərpası üçün transformatorlar, generatorlar və elektrik avadanlıqları göndərilib. Bununla yanaşı, məktəblər və sosial obyektlər üçün yanacaq və texniki dəstək təmin olunub. Azərbaycan, həmçinin Ukraynada bir sıra sosial obyektlərin – məktəb və uşaq bağçalarının bərpasında iştirak edib. Bu ilin ötən dövründə də bu ölkəyə humanitar yardımlar həyata keçirilib. Bundan başqa, Suriya ilə bağlı da Azərbaycan humanitar təşəbbüslərlə çıxış edib, uzunmüddətli münaqişənin yaratdığı ağır sosial vəziyyəti nəzərə alaraq beynəlxalq təşkilatlar vasitəsilə bu ölkəyə ərzaq və tibbi yardım göndərib. Eyni zamanda 2025-ci ilin avqustundan başlayaraq respublikamız təbii qaz ixracını yeni istiqamət üzrə genişləndirərək Suriya ilə əməkdaşlıqda da mühüm addım atıb. Təbi qaz Türkiyənin Kilis şəhəri vasitəsilə Hələb və Homs kimi böyük şəhərlərdə yerləşən elektrik stansiyalarına çatdırılır və burada elektrik enerjisi istehsalında istifadə olunur, bununla Suriyada enerji təminatının bərpasına töhfə verilir.

Azərbaycan 2023-cü ildə Türkiyədə baş vermiş güclü zəlzələ zamanı da ən böyük yardım göstərən ölkələrdən biri olub. "Qardaş köməyi" adı altında 900-dən çox xilasedici və tibbi heyət bölgəyə göndərilib, 50-dən artıq insan dağıntılar altından xilas edilib. Ümumilikdə, 5000 tondan artıq humanitar yük, o cümlədən çadırlar, qida məhsulları və tibbi avadanlıqlar insanların vəziyyətdən çıxış yolunu tapmasında mühüm dəstək rolunu oynayıb. Respublikamız, eyni zamanda zəlzələdən əziyyət çəkmiş Kahramanmaraş şəhərində müəyyən sosial və yaşayış obyektlərinin tikintisi üçün böyük maliyyə dəstəyi verib. Kahramanmaraşda "Azərbaycan məhəlləsi"nin inşası bu humanitar və qardaş köməyinin bariz nümunəsini, eyni zamanda tarixi köklərə söykənən "Bir millət, iki dövlət" prinsipinin müasir mərhələsini də əks etdirir. Ümumilikdə isə bu tədbirlər göstərir ki, Azərbaycan yalnız fövqəladə hallar zamanı yardımı ilə seçilmir, eyni zamanda uzunmüddətli bərpa və infrastruktur layihələrində də fəal tərəfdaş kimi çıxış edir. Məhz bunun nəticəsində Türkiyədə zəlzələdən zərər çəkmiş şəhərlərin yenidən qurulması prosesi sürətlənib və insanlara normal həyat şəraitinə qayıtmaq imkanı yaranıb.

Azərbaycanın humanitar siyasətində qonşu ölkələrə dəstək xüsusi yer tutur. İran İslam Respublikası ilə bağlı humanitar addımlar buna nümunədir. Məlum olduğu üzrə 2026-cı ilin fevralın 28-dən etibarən Yaxın Şərqdə başlayan genişmiqyaslı hərbi əməliyyatlar nəticəsində İran ərazisində ciddi humanitar böhran yaranıb, minlərlə insan müharibənin fəsadlarından əziyyət çəkir. Hər zaman olduğu kimi, bu şəraitdə də Azərbaycan operativ şəkildə humanitar dəstək verən ölkələrdən biri kimi özünü göstərməkdədir. Prezident İlham Əliyevin tapşırığına əsasən ayrı-ayrılıqda 3 dəfə tonlarla ərzaq, dərman və tibbi ləvazimatların yer aldığı humanitar yardım karvanı qonşu ölkəyə yola salınıb. Məhz belə çətin şəraitdə, mürəkkəb geosiyasi vəziyyətdə Azərbaycanın göstərdiyi humanitar yardım operativliyi, konkretliyi və həcm baxımından seçilən nümunələrdən hesab olunur. Bu faktlar göstərir ki, Azərbaycan yalnız regional deyil, həm də qlobal böhranlara çevik reaksiya verən və müharibə şəraitində belə humanitar dəyərləri ön planda saxlayan dövlət olaraq çıxış edir. İran Prezidenti Məsud Pezeşkianın "X" sosial şəbəkə hesabında Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürü də bunu bir daha təsdiqləyir: "Qardaşım İlham Əliyevlə söhbətimdə Azərbaycan hökumətinin və xalqının həmrəylik və dəstəyinə görə minnətdarlığımı bildirdim. Dost və qardaş xalqlar çətin anlarda bir-birini tanıyır və sivilizasiya kökləri nə qədər dərindirsə, bu bağ bir o qədər möhkəm olur".

Göründüyü kimi, Azərbaycanın humanitar yardım siyasəti onun xarici siyasətinin mühüm və ayrılmaz tərkib hissəsinə çevrilib. Bu sayədə ölkə beynəlxalq arenada etibarlı tərəfdaş kimi tanınır, müxtəlif regionlar arasında körpü rolunu uğurla yerinə yetirir və sülhə xidmət edən təşəbbüslərlə çıxış edir. Yardımların ayrı-seçkilik edilmədən göstərilməsi isə Azərbaycanın balanslı siyasətini və universal humanitar dəyərlərə sadiqliyini aydın şəkildə ortaya qoyur. Nəticə etibarilə, Azərbaycanın humanitar yardım siyasəti ardıcıl, sistemli və faktlara əsaslanan nümunəvi xarakter daşıyır. Türkiyə, Ukrayna, Suriya və İran kimi müxtəlif regionları təmsil edən ölkələrə göstərilən konkret yardımlar Azərbaycanın qlobal miqyasda fəal humanitar aktor kimi çıxış etdiyini təsdiqləyir. Bu siyasət təkcə ölkənin beynəlxalq nüfuzunu artırmaqla kifayətlənmir, eyni zamanda sülhün, sabitliyin və qarşılıqlı etimadın möhkəmlənməsinə də mühüm töhfələr verir. Prezident İlham Əliyevin mötəbər beynəlxalq tədbirlərdə səsləndirdiyi qətiyyətli fikirlər bu töhfəni aydın şəkildə ifadə edir: ***"Bu gün əfsuslar olsun ki, dünyada xoşagəlməz meyillər üstünlük təşkil edir. Qanlı toqquşmalar, müxtəlif bölgələrdə müharibələr gedir, dini, milli zəmində qan tökülür. Beynəlxalq humanitar əməkdaşlığın dərinləşməsi müəyyən dərəcədə bu mənfi meyillərin qarşısını ala və müsbət meyilləri gücləndirə bilər".***

**Nail ƏSGƏROV**

# Qarabağda insanların məşğulluğu xüsusi diqqətdə saxlanılır



## Yurdumuza qayıdırıq

30 il işğalda qalan torpaqlarımızı 44 gündə azad etdikdən cəmi bir il sonra yurdumuza qayıdacağımız düşüncəsi, bəlkə də, həmin dövrdə bir çoxlarına xəyal kimi görünsə də, biz bunu bacardıq. Baxmayaraq ki, 20 min kvadrat kilometrlik ərazi tamamilə dağıdılmışdı və əraziyə minalar döşənmişdi, Azərbaycan dövləti Böyük Qayıdışı reallaşdırmağı tez bir zamanda bacardı. İşğaldan azad edilmiş ərazilərə əhalinin qayıdışı 2022-ci ilin iyulunda Ağalı kəndinə ilk qayıdışla başlanıb. 6 şəhər, 2 qəsəbə və 22 kənd olmaqla, ümumilikdə, 30 yaşayış məntəqəsinə əhalinin köçürülməsi həyata keçirilib. Hazırda isə azad olunmuş ərazilərdə 64 mindən çox insan yaşayır, fəaliyyət göstərir və təhsil alır.

Əhalinin tezliklə işğaldan azad edilən yaşayış sahələrinə qayıdacağı nəzərə alınaraq bu ərazilərdə məskunlaşan keçmiş məcburi köçkünlərin məşğulluğu, onların ərzağa olan tələbatının ödənilməsi xüsusi diqqətdə saxlanılıb. Bu baxımdan, kənd təsərrüfatı məhsullarının emalı, yüngül və qida sənayesinin formalaşdırılması prosesinin həyata keçirilməsi diqqətdə saxlanılıb. İşğaldan azad edilmiş ərazilərdə bərpa, tikinti-quruculuq layihələrinin uğurla həyata keçirilməsi üçün stimullaşdırıcı tədbirlər daim ön plandadır. Məsələn, vergi güzəştlərinin tətbiqinə xüsusi önəm verilib. Belə ki, işğalçılardan təmizlənən torpaqlarda hər bir rezident 2023-cü ilin yanvarın 1-dən etibarən 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergilərdən azad edilib. Eyni zamanda həmin ərazilərin rezidenti olan hüquqi şəxslərin səhmdarlarının (payçılarının) dividend gəlirləri göstərilən tarixdən etibarən 10 il müddətində vergidən azad olunub. Bütün bunlar bölgəyə investisiya axınını artırır.

## Yaradılan yeni iş imkanları

Sənaye parkları ölkəmizdə iqtisadiyyatın inkişafına, ixrac potensialının artırılmasına, rəqabətqabiliyyətli məhsul istehsalına önəmli töhfə verir. İşğaldan azad edilmiş ərazilərdə fəaliyyətə başlayan sənaye parkları Qarabağ və Şərqi Zəngəzurda iqtisadi rayonların qeyri-neft sənayesinin sürətli inkişafına önəmli təsir göstərəcək. Ən əsası isə bu sənaye parklarında yaradılan iş imkanları gənc və bacarıqlı kadrların bu bölgəyə axınını gücləndirir.

Təməli dövlətimizin başçısı tərəfindən 2021-ci il mayın 28-də qoyulan Ağdam Sənaye Parkı Qarabağın yenidən qurulmasına, inkişafına önəmli təsir göstərəcək. Eyni zamanda bu nəhəng müəssisə respublikamızın ixrac potensialının artırılmasına, innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin inkişafına, ölkəyə valyuta axınının, investisiyaların artmasına yeni imkanlar açacaq.

Cəbrayıl rayonunda yaradılan "Araz Vadisi İqtisadi Zonası"nda da nəzərdə tutulan layihələr uğurla həyata keçirilir. İqtisadi zona 200 hektar ərazini əhatə edir. Parkın aqrar məhsulların emalı, sənaye, sosial və texniki zonalara bölünəcəyi nəzərdə tutulur. Burada logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri və digər sahələri əhatə edən məntəqələrin yaradılması planlaşdırılır. "Araz Vadisi İqtisadi Zonası"nda muxtar respublika sahibkarlarının logistik fəaliyyəti üçün də 14 hektar sahə müəyyənləşdirilib. Ərazidə Naxçıvan Sahibkarlar Konfederasiyasının vasitəsilə logistik anbarlar yaradılacaq. İlkin vaxtlarda parkda, əsasən, tikinti materiallarının satışı, sonrakı mərhələlərdə isə digər sahələr üzrə depoların tikintisi nəzərdə tutulub.

Laçın Aqro və Sənaye Parkının yaradılması da, əsasən, bu məqsədə xidmət edir. Parkda, ümumilikdə, 46 müəssisənin fəaliyyət göstərəcəyi, onların da 80 faizinin bu il yayın sonunadək işə başlayacağı nəzərdə tutulur. Burada həm iri, həm də kiçik mebel fabrikləri, yüngül materiallardan ev və digər konstruksiyalar hazırlayan zavod, balıqçılıq təsərrüfatı, yeyinti və yüngül sənaye, ekoloji cəhətdən təmiz emal müəssisələri, eyni zamanda kiçikbuynuzlu heyvanlar üzrə elmi-təcrübə mərkəzinin yaradılması planlaşdırılır.




**Prezident İlham ƏLİYEV:**

*"Bu gün ölkəmizin bütün bölgələrində, həmçinin Qarabağda yeni istehsalat sahələri açılır. O cümlədən böyük rəmzi məna daşıyan "İstisu" su zavodunun açılışı olmuşdur və artıq istisu yenə də bizim süfrəmizdədir. Bu, doğrudan da, həm böyük rəmzi məna daşıyır, həm də ki, tarixi ədalətin bərpasıdır."*

## Səhər işə, axşam isə evə tələsirlər

Azad edilmiş ərazilərdə insanların məşğulluğu təkcə sənaye parklarında yaradılan istehsal müəssisələrində və ya digər istehsal obyektlərində təmin edilmir. Təhsil, mədəniyyət səhiyyə, yerli icra hakimiyyəti orqanlarında da insanların məşğulluğunun təmin edilməsi istiqamətində bir çox işlər görülür, keçmiş məcburi köçkünlər özünüməşğulluq proqramına cəlb edilir. Qarabağ və Şərqi Zəngəzurda böyük quruculuq işləri aparılmaqla məşğulluq imkanları da daim genişlənir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən işəgötürənlərlə sıx əməkdaşlıq qurur və bu hesaba doğma yurdlarına qayıdan sakinlər işədüzəltmə, özünüməşğulluq proqramı, peşə hazırlığı proqramı, əmək yarmarkaları və sair kimi məşğulluq proqramları ilə əhatə olunurlar. 30 il məcburi köçkün həyatı yaşamaq məcburiyyəti qarşısında qalan vətəndaşlarımız doğma yurdlarına köçürülməzdən əvvəl nazirliyin elektron sistemləri üzərindən təhlillər aparılır, görüşlər keçirilir, məşğulluq imkanları qiymətləndirilir. Köçürüldükdən sonra isə onlar məşğulluq proqramlarına cəlb olunurlar. Doğma yurda dönən iqtisadi fəal soydaşlarımızın artıq 8 min nəfərdən çoxunun məşğulluğu təmin edilib.

Bundan savayı, özünüməşğulluq proqramı həmin sakinləri də əhatə edir və bu hesaba 700-dək şəxs üçün özünüməşğulluq proqramı çərçivəsində öz doğma yurdlarında kiçik ailə biznesləri qurulub. Habelə öz doğma ocağına qayıdan onlarla insan müxtəlif istiqamətlər üzrə peşə hazırlığı və təlimlərə cəlb edilib. Ümumilikdə, "Böyük Qayıdış" proqramı üzrə Qarabağ və Şərqi Zəngəzura köçürülən sakinlərdən əmək qabiliyyətli olanların məşğulluğunun təminatı göstəricisi 90 faizdən çoxdur. Qeyd etmək yerinə düşər ki, qələbədən ötən illər ərzində azad olunmuş ərazilərdə istifadəyə verilən ümumi və məktəbəqədər təhsil müəssisələrində onlarla müəllim və texniki işçi fəaliyyət göstərir. Qarabağ Universiteti bölgənin ali təhsil mərkəzinə çevrilib, burada 400 nəfər akademik və inzibati heyət çalışır. Dövlətimiz tərəfindən işğaldan azad olunmuş ərazilərə öz doğma yurd-yuvasına qayıdan hər bir sakin üçün yeni iş imkanları açmaqla yanaşı, onların yaşayış şəraitini yaxşılaşdırmaq üçün də bir çox güzəştlər edilir. Evinə öz doğma ocağına qayıdan hər bir insan dövlətimizin qayğıkeş əlini öz çiyinlərində hiss edir. Xankəndidə, Xocalıda, Şuşada öz torpağında yaşayan insanlar gündüz işə, axşam isə evə tələsməyin sevincini yaşayırlar.

**Ramiyə ƏKBƏROVA**

# Səlahiyyətli nümayəndə tərəfindən növbəti vətəndaş qəbulu keçirilib



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov tərəfindən növbəti vətəndaş qəbulu keçirilib.

Qəbul zamanı vətəndaşların, o cümlədən şəhid ailələrinin üzvlərinin və müharibə iştirakçılarının müraciətləri dinlənilib. Vətəndaşlar, əsasən, sosial təminat, məşğulluq, əlilliyin təyinatı, kommunal xidmətlər, eləcə də digər sosial məsələlərlə bağlı müraciətlər ediblər.

Səlahiyyətli nümayəndə hər bir müraciətə həssaslıqla yanaşıldığını vurğulayaraq qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun şəkildə araşdırılacağını və onların həlli istiqamətində zəruri tədbirlərin görüləcəyini bildirib.





Vurğulanıb ki, vətəndaş müraciətlərinin dinlənilməsi, onların sosial problemlərinin operativ həlli, eləcə də şəhid ailələri və müharibə iştirakçılarına xüsusi diqqət göstərilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu istiqamətdə vətəndaş qəbulları mütəmadi olaraq davam etdirilir.

# Ali Məclisin növbəti plenar iclası keçirilib



Aprelin 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Ali Məclisin yaz sessiyasının növbəti iclası keçirilib.

Ali Məclis sədrinin birinci müavini iclasın gündəliyinə 3 məsələnin müzakirəsinin daxil edildiyini bildirib.

Gündəlik təsdiq olunduqdan sonra birinci məsələ – "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi zamanı Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev qanun layihəsi barədə məlumat verdikdən sonra Qanun səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov qeyd edib ki, növbəti məsələ "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda müzakirəsidir. Bildirilib ki, "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli Konstitusiya Qanunu ilə əlaqədar ötən plenar iclasda "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununun ləğv edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanunu qəbul edilib. Müvafiq Qanuna uyğunlaşdırma məqsədi ilə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi hazırlanıb.



Qanun layihəsi barədə Hüquq siyasəti komitəsinin sədri məlumat verib və komitənin rəyini diqqətə çatdırdıqdan sonra qanun qəbul olunub.

Gündəlikdə duran üçüncü məsələ "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda müzakirəsi olub. Məsələ ilə bağlı Bəxtiyar Məmmədov vurğulayıb ki, "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli Konstitusiya Qanunu ilə Ali Məclisin və Nazirlər Kabinetinin səlahiyyətlərində dəyişiklikləri nəzərə alaraq, həmçinin Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 6-cı bəndində əks etdirilmiş Ali Məclisin Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun həyata keçirilməsi üçün yeni qanun layihəsi hazırlanıb.

Qanun layihəsi barədə Hüquq siyasəti komitəsinin sədri məlumat verib, komitənin rəyini diqqətə çatdırıb.

Deputatlardan Əziz Qasımov və Mövlan Məmmədov qanun layihəsi barədə fikirlərini bildirdikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Bununla da Ali Məclisin iclası başa çatıb.

# Naxçıvanda İranın Ali Liderinin xatirəsi anılıb



Aprelin 10-da Naxçıvan şəhərində İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və həlak olan bir çox mülki şəxsin anım mərasimi keçirilib, ehsan süfrəsi açılıb.

Mərasimdə Naxçıvan Muxtar Respublikasının Baş naziri Cabbar Musayev, İranın Naxçıvandakı Baş konsulu Əziz Mənsuri, dövlət və hökumət nümayəndələri iştirak ediblər. Baş nazir Cabbar Musayev İranın Ali Liderinin ölümünün 40-cı günü münasibətilə başsağlığı verib.

Mərasimdə Azərbaycan-İran əlaqələrindən bəhs olunub. Qeyd edilib ki, Prezident İlham Əliyevin tapşırığı ilə müharibə dövründə İrana humanitar yardımlar göstərilib. Bu addım iki ölkə arasında dostluq və mehriban qonşuluq münasibətlərinin bariz nümunəsi kimi dəyərləndirilib.



# Ali Məclisin Hüquq siyasəti komitəsinin iclası keçirilib



Aprelin 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin növbəti iclası keçirilib.

Komitə sədri Əjdər Əliyev iclasın gündəliyinin ikinci oxunuşda olan "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının qanun layihələrinin müzakirəsi olduğunu bildirib.

İclasda qanun layihələri haqqında Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdir müavini Tofiq Rəcəbli məlumat verib.

Gündəlikdə duran məsələlərlə bağlı müzakirələr aparıldıqdan sonra qanun layihələri Ali Məclisin plenar iclasında müzakirəsinə tövsiyə olunub.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə BP arasında əməkdaşlıq sazişi imzalanıb

Aprelin 10-da Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə BP arasında əməkdaşlıq sazişi imzalanıb.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində keçirilən görüşdə təhsil naziri Elxan Nəcəfov dövlət-özəl tərəfdaşlığı çərçivəsində imzalanan sazişin əhəmiyyətini yüksək qiymətləndirərək bildirib ki, BP ilə icra ediləcək bu əməkdaşlıq istedadlı şagirdlərin erkən aşkarlanması və onların beynəlxalq olimpiadalara hazırlanması üçün yeni imkanlar yaradacaq.

BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə bu sazişi imzalamaqdan çox məmnunuq. Bu, əməkdaşlığımız üçün bir başlanğıc nöqtəsidir və regionda bacarıqların uzunmüddətli inkişafına və potensialın gücləndirilməsinə verdiyimiz önəmi bir daha vurğulayır. Saziş birgə fəaliyyətimiz üçün möhkəm zəmin yaradaraq yerli ehtiyaclar və prioritetlər nəzərə alınmaqla istedadlı şagirdlərə dəstək, tədris və öyrənmə imkanlarının genişləndirilməsi, eləcə də ümumi və peşə təhsili infrastrukturunun təkmilləşdirilməsi istiqamətində yeni təşəbbüslərin həyata keçirilməsinə imkan verəcək.

Qeyd edək ki, sazişə əsasən BP tərəfindən muxtar respublikanın bir neçə təhsil müəssisələrində kimya laboratoriyalarının qurulması və ya mövcud laboratoriyaların zənginləşdirilməsi, peşə təhsili müəssisələrində isə istehsalat emalatxanalarının zənginləşdirilməsi və ya yeni emalatxanaların yaradılması nəzərdə tutulur. Həmçinin şirkət tərəfindən muxtar respublikanın ümum təhsil müəssisələrində tədris aparan 30 nəfər perspektivli və metodoloji dəstəyə ehtiyacı olan ingilis dili müəlliminin ixtisasartırma və təlim proqramlarına cəlbi, istedadlı şagirdlərin (riyaziyyat, informatika, fizika və kimya fənləri üzrə) aşkarlanması, onların yerli və beynəlxalq olimpiadalara hazırlığının dəstəklənməsi həyata keçiriləcək.

Məlumat üçün bildirək ki, yeni 2 istehsalat emalatxanası Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzində, 2 yeni laboratoriya isə Heydər Əliyev adına tam orta məktəbdə və Naxçıvan Qızlar Liseyində yaradılacaq.



İmzalanma mərasimindən sonra laboratoriyaların və istehsalat emalatxanalarının yaradılacağı təhsil müəssisələrinə baxış keçirilib.

# Naxçıvanın 2026-cı ilin birinci rübünə dair sosial-iqtisadi inkişaf göstəriciləri açıqlanıb

























2026-cı ilin yanvar-mart aylarında Naxçıvan Muxtar Respublikasında makroiqtisadi göstəricilər üzrə müsbət dinamika davam etmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti məlumat verir ki, hesabat dövründə ümumi daxili məhsulun istehsalı, sənaye, kənd təsərrüfatı, nəqliyyat, büdcə daxilolmaları, sahibkarlığa maliyyə dəstəyi və digər əsas istiqamətlərdə artım qeydə alınmışdır. Cari ilin birinci rübündə muxtar respublikada ümumi daxili məhsul həcmi 383,6 milyon manat təşkil etmiş, ötən ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 4,0 faiz artım qeydə alınmışdır. ÜDM-in strukturunda 257,0 milyon manat xidmətlərdən yaranan əlavə dəyər, 88,1 milyon manat məhsul istehsalı, 38,5 milyon manat isə məhsula və idxala xalis vergilərin payına düşmüşdür.

Muxtar respublikada əhalinin sosial rifahını əks etdirən əsas göstəricilərdən biri olan ortaaylıq nominal əməkhaqqında da artım qeydə alınmış, cari ilin müvafiq dövründə ortaaylıq nominal əməkhaqqı 803,2 manat olmuş, bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 3,7 faiz artmışdır. Sahibkarlığın inkişafı istiqamətində dəstək tədbirləri davam etdirilmiş, 2026-cı ilin birinci rübündə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 33 layihəyə, ümumilikdə, 1 milyon 611 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. Sahibkarlara verilmiş kreditlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 20,9 faiz artmışdır.

Büdcə gəlirləri üzrə göstəricilər də artımla müşayiət olunmuşdur. 2026-cı ilin birinci rübündə büdcə daxilolmaları 59,46 milyon manat təşkil etmiş, bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,2 faiz artmışdır. Daxilolmaların 54,79 milyon manatı vergi orqanları tərəfindən yığılan vergilər, 3,67 milyon manatı gömrük orqanları tərəfindən yığımlar, 0,52 milyon manatı büdcə təşkilatlarının ödənişli xidmətləri, 0,48 milyon manatı isə digər daxilolmaların payına düşmüşdür.

Sənaye sahəsində muxtar respublikada 129,3 milyon manatlıq məhsul istehsal olunmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,4 faiz artım deməkdir. Kənd təsərrüfatında isə 2026-cı ilin birinci rübündə 44,1 milyon manatlıq məhsul istehsal olunmuş, bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,8 faiz artmışdır. İstehsal olunan kənd təsərrüfatı məhsulunun 3,7 milyon manatı bitkiçilik, 40,4 milyon manatı isə heyvandarlıq sahəsinin payına düşmüşdür. Bitkiçilik üzrə 5,5 faiz, heyvandarlıq üzrə isə 0,3 faiz artım qeydə alınmışdır.

Ümumilikdə, 2026-cı ilin yanvar-mart aylarının nəticələri Naxçıvan Muxtar Respublikasında iqtisadi aktivliyin qorunduğunu, əsas makroiqtisadi göstəricilər üzrə artım meylinin davam etdiyini və sahibkarlığın, istehsalın, xidmətlərin, sosial göstəricilərin inkişafı istiqamətində görülən işlərin real nəticələr verdiyini göstərir.

# Naxçıvanda sahibkarlıq inkişaf edir: ilin ilk rübündə layihələr və investisiyalar artıb



Naxçıvan Muxtar Respublikasında sahibkarlığın dəstəklənməsi, yeni istehsal və xidmət sahələrinin yaradılması, eləcə də investisiya mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər real nəticələr verməkdədir. Bu özünü 2026-cı ilin birinci rübündə də göstərir. Hesabat dövründə həm lisenziyaların sayında, həm də büdcə daxilolmalarında əhəmiyyətli artım müşahidə olunub, onlarla yeni layihə icra edilərək iqtisadi inkişafın davamlılığı təmin edilib. Belə ki, bu ilin yanvar-mart aylarında Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzi vasitəsilə sahibkarlara əczaçılıq, baytarlıq, tikinti və digər fəaliyyət növləri üzrə, ümumilikdə, 12 lisenziya verilib. Verilmiş lisenziyaların sayı ötən ilin müvafiq dövrünə nisbətən 71,4 faiz, lisenziyalardan daxilolmaların məbləği isə ötən ilin müvafiq dövrünə nisbətən 82,4 faiz artıb. Cari ilin 3 ayında Naxçıvan Muxtar Respublikasının müvafiq qurumlarının verdiyi 1206 icazə reyestrdə qeydiyyata alınıb, verilmiş icazələr əsasında dövlət büdcəsinə 27,5 min manat vəsait daxil olub.

İlk rübdə regionda sahibkarlığın təşviqi və investisiya fəallığının artırılması istiqamətində mühüm nəticələr əldə edilib. Yeni istehsal və xidmət sahələrinin yaradılması, eləcə də mövcud layihələrin genişləndirilməsi iqtisadi dinamikanı gücləndirib, məşğulluğun artmasına və yerli istehsalın genişlənməsinə töhfə verib. Bu müddət ərzində Naxçıvan Muxtar Respublikasında yeni istehsal və xidmət sahələrinin yaradılması, eləcə də mövcud layihələrin genişləndirilməsi istiqamətində 48 layihə icra olunub. Həmin layihələrdən 13-ü yeni yaradılma, 35-i isə mövcud layihələrin genişləndirilməsi üzrə həyata keçirilib. Eyni zamanda 38-i yaradılma və 65-i genişləndirmə olmaqla, ümumilikdə, 103 layihənin icrası davam etdirilib. Həyata keçirilən layihələrin böyük hissəsi kənd təsərrüfatı və xidmət sahələrini əhatə edib. Kənd təsərrüfatı istiqamətində heyvandarlıq üzrə 29, arıçılıq üzrə 4, istixana təsərrüfatı üzrə 2 layihə, xidmət sahələri üzrə isə müxtəlif istiqamətlərdə 13 layihə icra olunub. Layihələrin maliyyələşdirilməsi dövlət dəstəyi və özəl investisiyalar hesabına təmin edilib. Bəhs olunan dövrdə Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən 39 layihənin maliyyələşdirilməsinə 882 min manat güzəştli dövlət maliyyə dəstəyi göstərilib.

Sahibkarlığın dəstəklənməsi məqsədilə təsdiqedici sənədlərin verilməsi və güzəştlərin tətbiqi davam etdirilib. Bu dəstək tədbirləri nəticəsində regionda həm idxal olunan texnoloji avadanlıqların həcmi artıb, həm də yerli müəssisələrin emal gücü və ixrac potensialı daha da güclənib. Bu ilin yanvar-mart ayları ərzində Naxçıvan Muxtar Respublikasında sahibkarlığın dəstəklənməsi istiqamətində 9 sahibkarlıq subyektinə 33 təsdiqedici sənəd verilib. Müvafiq investisiya təşviqi sənədi olan müəssisələrə təqdim olunan 5 təsdiqedici sənəd əsasında 1,5 milyon manat dəyərində Rusiya, Çin, Türkiyə mənşəli texnika, texnoloji avadanlıqlar və qurğular idxal edilib. 1 yanvar 2026-cı ildən qüvvəyə minən vergi, gömrük və sosial sığorta güzəştlərinə əsasən 28 təsdiqedici sənəd əsasında 2,4 milyon manat dəyərində xammal və materialların Avstriya, İran, İraq, Gürcüstan kimi ölkələrdən idxalı həyata keçirilib. Cari ilin 3 ayı ərzində idxal olunan xammal, material və texnoloji avadanlıqlara əlavə dəyər vergisi və gömrük rüsumları üzrə 1,1 milyon manat dəyərində güzəştlər tətbiq edilib. Bütün bunların nəticəsi olaraq qida məhsulları, tütün məmulatları, sərinləşdirici içkilər, mineral sular, metal və plastik məmulatlar istehsal edən müəssisələrin emal gücü və ixrac potensialı artıb.

Görülən tədbirlər və həyata keçirilən layihələr göstərir ki, Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafı və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində atılan addımlar artıq konkret nəticələr verməkdədir. Dövlət dəstəyi, tətbiq olunan güzəştlər və özəl investisiyaların artması regionda istehsal gücünün və ixrac potensialının genişlənməsinə zəmin yaradır. Bu tendensiyanın davam etməsi isə Naxçıvanın iqtisadi dayanıqlılığının daha da möhkəmlənməsinə və regionun ölkə iqtisadiyyatında rolunun artmasına xidmət edəcək.

# Ordubadda "Ərbabın iş yeri" adlı tarixi binanın tam bərpası bu ilin sonuna planlaşdırılır

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"na əsasən Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin sifarişi əsasında "Ərbabın iş yeri" adlanan tarixi binanın əvvəlki görkəminə qaytarılması istiqamətində hazırda təmir-bərpa işləri aparılır. Prosesin ilin sonuna yekunlaşdırılması nəzərdə tutulur."

Bu sözləri "Şərq qapısı"na müsahibəsində layihə rəhbəri Fərid Kazımlı deyib.

O qeyd edib ki, işlər orta mərhələdədir və ümumi həcmin, təxminən, 50 faizi artıq tamamlanıb. Qaba işlər yekunlaşıb və hazırda əsas təmir-bərpa mərhələsinə keçilib.

Fərid Kazımlının sözlərinə görə, bina tam şəkildə ilkin vəziyyətinə qaytarılacaq, mövcud ornamentlər bərpa ediləcək: "Hazırda yerləşdiyimiz otaq baş fond mühafizi otağı kimi fəaliyyət göstərəcək. Bu məkanda alimlər, bərpaçılar, rəssamlar və digər mütəxəssislər çalışacaq. Digər hissələr isə Mədəniyyət Nazirliyinin müəyyən etdiyi bölgüsünə uyğun olaraq istifadə olunacaq. Bina iki mərtəbədən ibarətdir. Birinci mərtəbədə, əsas hissənin yan tərəfində ictimaiyyət üçün açıq olan kafe yerləşəcək. İkinci mərtəbədə inzibati heyət üçün otaqlar nəzərdə tutulub. Bundan əlavə, həmin mərtəbədə muzey bölməsi fəaliyyət göstərəcək. Muzey hissəsinin yaxınlığında isə geniş konfrans zalı istifadəyə veriləcək".

**"Şərq qapısı"**



# Paytaxtdan mesaj: güclü qadın, güclü cəmiyyət



Sara ƏZİMOVA
Naxçıvan Muxtar Respublikasının
Əməkdar jurnalisti

*Müasir dünyada davamlı inkişaf, sosial ədalət və inklüziv iqtisadiyyat anlayışları artıq bir-birindən ayrılmaz məfhumlara çevrilib. Bu kontekstdə qadınların cəmiyyətin bütün sahələrində fəal iştirakı sosial zərurət olmaqla yanaşı, həm də strateji inkişaf faktorudur. Məhz bu baxımdan, Bakıda keçirilən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin – AQEM – "AQEM məkanında davamlı inkişaf naminə qadınların səslərinin gücləndirilməsi" mövzusunda beynəlxalq konfransı mühüm siyasi, sosial və iqtisadi məna kəsb edən hadisə kimi tarixə düşür. Azərbaycanın belə bir mötəbər tədbirə ev sahibliyi etməsi bizi qürurlandırdı. Ölkəmizin beynəlxalq münasibətlər sistemində artan rolunun, təşəbbüskarlıq qabiliyyətinin və qlobal problemlərin həllində fəal iştirakının bir daha şahidi olduq. Azərbaycan uzun illərdir ki, dialoq, əməkdaşlıq və qarşılıqlı etimad platformalarının yaradılmasında mühüm rol oynayır. Bakı isə artıq beynəlxalq konfransların, strateji müzakirələrin keçirildiyi nüfuzlu mərkəzlərdən birinə çevrilib.*

## Qadın amili: statistik göstəricidən strateji gücə

Konfransda çıxış edən Leyla Əliyeva öz nitqində qadınların cəmiyyət və iqtisadiyyatdakı roluna xüsusi diqqət çəkərək qeyd etdi ki, Azərbaycanda məşğul əhalinin, təxminən, 50 faizini qadınlar təşkil edir. Bu rəqəm qadınların ölkənin iqtisadi həyatında fəal iştirakının, onların istehsal, xidmət, idarəetmə və digər sahələrdə aparıcı mövqelər tutduqlarının real göstəricisidir.

Bu göstərici həm də onu deməyə əsas verir ki, Azərbaycanda qadınlar artıq ənənəvi sosial rollardan çıxaraq iqtisadiyyatın formalaşmasında və inkişafında birbaşa iştirak edən əsas aktorlardan birinə çevriliblər. Bu isə dövlət siyasətinin düzgün qurulmasının, gender bərabərliyinə verilən önəmin və qadınların potensialının reallaşdırılması üçün yaradılan imkanların nəticəsidir.

Leyla Əliyevanın çıxışında xüsusi yer tutan məqamlardan biri də IDEA İctimai Birliyi çərçivəsində həyata keçirilən ekoloji layihələr oldu. Müasir dövrdə iqlim dəyişiklikləri, ətraf mühitin çirklənməsi və təbii resursların tükənməsi kimi qlobal problemlər fonunda bu təşəbbüslər xüsusi əhəmiyyət daşıyır.

IDEA tərəfindən həyata keçirilən ağacəkmə kampaniyaları, heyvanların mühafizəsi, tullantıların azaldılması və ekoloji maarifləndirmə layihələrində minlərlə qadının fəal iştirakı diqqətəlayiqdir. Bu, qadınların həm də ekoloji məsuliyyət daşıyan güc kimi formalaşdığını göstərir. Qadının təbiətə bağlılığı, qoruyucu və yaradıcı missiyası bu cür təşəbbüslərdə özünü daha aydın büruzə verir.

## Azərbaycanın sədrliyi və yeni təşəbbüslər

Konfrans çərçivəsində ən mühüm məqamlardan biri də Azərbaycanın AQEM-ə sədrliyi dövründə irəli sürdüyü təşəbbüslər oldu. Xüsusilə AQEM Qadınlar Şurasının yaradılması ideyası region üçün yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər.

Leyla Əliyeva bu təşəbbüsü yüksək qiymətləndirərək qeyd etdi ki, belə bir platforma qadınların səslərinin daha sistemli və koordinasiyalı şəkildə eşidilməsinə imkan yaradacaq. Bu şura yalnız müzakirə platforması deyil, həm də real fəaliyyət mexanizmi kimi çıxış edərək qadınların qərar qəbuletmə proseslərində iştirakını gücləndirəcək.

## Beynəlxalq baxış və regional çağırışlar

AQEM-in Baş katibi Kayrat Sarıbay çıxışında qadınların gücləndirilməsinin yalnız sosial məsələ deyil, həm də iqtisadi və siyasi sabitlik üçün vacib amil olduğunu vurğuladı. O qeyd etdi ki, Asiya regionunda qadınların əmək bazarında iştirakı hələ də arzu olunan səviyyədə deyil və gender fərqi, təxminən, 20 faiz təşkil edir. Bu fonda Azərbaycanın göstəriciləri müsbət nümunə kimi xüsusi diqqət çəkir.

Baş katibin fikirləri bir daha sübut edir ki, qadınların iqtisadi və ictimai proseslərdə iştirakı nə qədər geniş olarsa, cəmiyyətlərin inkişafı bir o qədər dayanıqlı və balanslı olar.

BMT Qadınlar Qurumunun icraçı direktoru Sima Sami Bahous isə videomüraciətində qadınların iqtisadi gücləndirilməsinin dayanıqlı inkişafın əsas sütunlarından biri olduğunu qeyd etdi. Onun sözlərinə görə, qadınlara imkanların yaradılması, bütövlükdə, cəmiyyətin inkişafını təmin edir.

## Sahibkarlıq, rəqəmsallaşma və yeni imkanlar

Konfrans çərçivəsində keçirilən panel müzakirələri müasir dövrün əsas çağırışlarını əhatə etdi. Xüsusilə "Kiçik və orta biznesdə qadın sahibkarlığı: Süni intellekt və rəqəmsallaşmanın imkanları" mövzusu diqqət mərkəzində oldu.

Bu müzakirələrdə vurğulandı ki, rəqəmsallaşma və süni intellekt qadın sahibkarlar üçün yeni üfüqlər açır. Onlar artıq ənənəvi biznes modellərindən çıxaraq qlobal bazarlara çıxış əldə edir, innovativ məhsullar və xidmətlər təqdim edirlər. Bu isə qadınların iqtisadi müstəqilliyini daha da gücləndirir.

Eyni zamanda "Ətraf mühitin qorunması və dayanıqlığın qurulmasında qadın liderliyi" mövzusunda panel müzakirələri qadınların ekoloji sahədə liderlik potensialını bir daha ortaya qoydu. Qadınların bu sahədə fəaliyyəti yalnız ekoloji problemlərin həllinə deyil, həm də cəmiyyətin maarifləndirilməsinə mühüm töhfə verir.

## Qadınlar Şurası: institusional gücün təməli

Konfransın ən mühüm nəticələrindən biri AQEM Qadınlar Şurasının ilk iclasının keçirilməsi oldu. Bu şura region ölkələri arasında əməkdaşlığın gücləndirilməsi, təcrübə mübadiləsinin təşkili və qadınların hüquq və imkanlarının genişləndirilməsi baxımından mühüm rol oynayacaq.

Bu təşəbbüs Azərbaycanın beynəlxalq səviyyədə irəli sürdüyü ən uğurlu ideyalardan biri kimi qiymətləndirilə bilər. Çünki bu yalnız bir strukturun yaradılması deyil, həm də qadınların səsinin daha sistemli şəkildə beynəlxalq gündəliyə daxil edilməsidir.

## Azərbaycanın mesajı: inklüziv və dayanıqlı gələcək

Bugünkü reallıq göstərir ki, Azərbaycan qadınların gücləndirilməsi sahəsində yalnız daxili siyasət yürütmür, eyni zamanda beynəlxalq təşəbbüslərlə çıxış edərək bu sahədə qlobal liderlik iddiasını ortaya qoyur. Bakıdan verilən mesaj isə aydındır: qadınların iştirakı olmadan nə dayanıqlı inkişaf, nə də sosial ədalət mümkündür.

Bu konfrans bir daha sübut etdi ki, Azərbaycan qadınların hüquqlarının qorunması, onların iqtisadi və sosial imkanlarının genişləndirilməsi istiqamətində ardıcıl və məqsədyönlü siyasət həyata keçirir. Bu siyasət isə yalnız bu günün deyil, gələcəyin də təminatıdır.

Qadınların səsi gücləndikcə cəmiyyətlər daha möhkəm, iqtisadiyyatlar daha dayanıqlı, dövlətlər isə daha güclü olur. Azərbaycan isə bu prosesdə yalnız iştirakçı deyil, həm də istiqamətverici qüvvə kimi çıxış edir.

# Rəhbər şəxslər üçün kibertəhlükəsizlik təlimi keçirilib



Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) nəzdində fəaliyyət göstərən Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin birgə təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən dövlət qurumlarının rəhbər heyəti üçün kibertəhlükəsizlik mövzusunda təlim keçirilib.

Ağbulaq İstirahət Mərkəzində təşkil olunan tədbirdə əvvəlcə sərgi və stendlərlə tanışlıq olub, kibertəhlükəsizlik sahəsində tətbiq olunan müasir texnologiyalar və innovativ həllərlə bağlı məlumat əldə edilib. Daha sonra açılış nitqi ilə çıxış edən Naxçıvan Muxtar Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini, nazir vəzifələrini icra edən Azər Məmmədrəhimov bu cür təlimlərin müasir dövrdə xüsusi əhəmiyyət daşıdığını vurğulayaraq qeyd edib ki, rəqəmsallaşmanın sürətlə artdığı bir şəraitdə dövlət qurumlarının kibertəhlükəsizliyinin gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. O, informasiya təhlükəsizliyinin təmin olunmasının yalnız texniki məsələ deyil, həm də idarəetmə və məsuliyyət məsələsi olduğunu diqqətə çatdırıb.

Ardınca çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev kibertəhlükəsizlik sahəsində maarifləndirmə tədbirlərinin davamlılığının vacibliyini vurğulayıb. O bildirib ki, müasir dövrdə informasiya təhlükəsizliyi yalnız İT mütəxəssislərinin deyil, bütün rəhbər şəxslərin gündəmində olmalıdır və bu sahədə biliklərin artırılması idarəetmənin effektivliyinə birbaşa təsir göstərir.

İRİA-nın İnformasiya Təhlükəsizliyi Departamentinin müdiri Şahmar Hacıyahyayev çıxışı zamanı vurğulayıb ki, qurumların rəqəmsallaşması ilə paralel olaraq kibertəhlükəsizliyinin də təmin edilməsi olduqca vacib faktordur. Bu sahədə Azərbaycan Kibertəhlükəsizlik Mərkəzi olaraq böyük işlər görürük. Belə ki, son 2 ildə 200-dən çox rəhbər şəxsə və 50-dən çox qurumun 6000-ə yaxın əməkdaşına kibermaarifləndirmə təlimləri həyata keçirilib. Bu da həmin qurumların kiberdayanıqlılığının artırılması istiqamətində görülmüş ciddi addımlardır.





Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin xarici təlimçi heyəti və İRİA tərəfindən dəvət edilən xarici ekspertlər tərəfindən rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizlik sahələrinə dair müxtəlif aktual mövzularda təqdimatlar və praktiki vörkşoplar həyata keçirilib.

Kibertəhlükəsizlik sahəsinə dair əsas anlayışlar, müasir qlobal çağırışlar və dövlət sektorunda rast gəlinən əsas risklər geniş şəkildə izah edilib. Daha sonra rəhbər şəxslərə yönəlmiş hədəfli hücumlar, xüsusilə CEO və yüksək vəzifəli şəxslərin fişinq, sosial mühəndislik və digər kiberhücumlara məruz qalma halları real nümunələr əsasında təhlil olunub.

Eyni zamanda informasiya sızmalarının başvermə səbəbləri, o cümlədən insan faktoru, zəif təhlükəsizlik siyasətləri və texniki boşluqlar müzakirə edilib, bu risklərin minimuma endirilməsi üçün qabaqlayıcı tədbirlər və effektiv idarəetmə yanaşmaları iştirakçıların diqqətinə çatdırılıb. Həmçinin açıq mənbələrdən məlumat toplanması (OSINT) və təşkilatlar üçün yarada biləcəyi təhlükələr barədə ətraflı məlumat verilib.

Günün ikinci yarısında təşkil olunan masaüstü məşğələlər zamanı iştirakçılar real ssenarilər üzərində işləyərək kiberinsidentlərə reaksiya vermə, qərar qəbuletmə və böhran vəziyyətlərinin idarə olunması bacarıqlarını praktiki şəkildə tətbiq ediblər. Bu sessiyalar rəhbər şəxslərin kritik situasiyalarda operativ və düzgün qərarvermə qabiliyyətlərinin gücləndirilməsinə yönəlib.

Təlim çərçivəsində, həmçinin veb-fəaliyyətlər zamanı istifadəçi davranışının analizi, brauzer artefaktları vasitəsilə istifadəçi niyyətinin və potensial risklərin müəyyən edilməsi, eləcə də rəqəmsal izlərin təhlükəsizlik baxımından qiymətləndirilməsi kimi müasir və aktual məsələlər də geniş müzakirə olunub.

Tədbir sual-cavab sessiyası və yekun müzakirələrlə başa çatıb.

# Naxçıvan-İğdır-Qars dəmir yolu:
## Naxçıvanın iqtisadi gələcəyini formalaşdıracaq strateji layihə

Azərbaycan xüsusilə Vətən müharibəsində qazandığı tarixi zəfərdən sonra regionda yaratdığı yeni reallıqlar fonunda mühüm infrastruktur və enerji layihələrinə imza ataraq strateji mövqeyini xeyli gücləndirib. Xüsusilə nəqliyyat dəhlizləri və enerji ixrac layihələri ölkənin beynəlxalq əhəmiyyətini kifayət qədər artırmaqdadır. Bu layihələr region ölkələri arasında əməkdaşlığın genişlənməsinə şərait yaratmaqla effektiv praktik nəticələr verən uğurlu platforma rolunu oynayır. Hazırda icrası davam edən Naxçıvan-İğdır-Qars dəmir yolu layihəsi də bu baxımdan, xüsusi əhəmiyyət daşıyır və regionda nəqliyyat əlaqələrini daha da gücləndirməyə hesablanıb. Bu layihə Azərbaycan-Türkiyə və digər regional bazarlara daha sürətli çıxışını təmin edəcək. Nəticədə, həm iqtisadi inteqrasiya dərinləşəcək, həm də region ölkələri arasında əməkdaşlıq genişlənəcək.



Məlum olduğu üzrə ötən il avqustun 22-də Türkiyənin İğdır şəhərində Qars-İğdır-Aralıq-Dilucu dəmir yolunun Naxçıvan Muxtar Respublikası sərhədinə çatan birinci hissəsinin təməlqoyma mərasimi keçirilib. Orta Dəhlizin yeni nəfəsi sayılan bu layihə 223,9 kilometr uzunluğunda yüksək standartlı dəmir yolu xəttini əhatə edir. Saatda 120-160 kilometr sürət üçün nəzərdə tutulan proyekt 5 ilə tamamlanacaq. Uzunluğu 638 metr olan 10 körpü, 5,5 kilometr uzunluğunda 144 yeraltı keçid tikiləcək. Türkiyə hissəsində beş stansiyanın inşası planlaşdırılır: Digor, Tuzluca, İğdır, Aralıq və Dilucu. Azərbaycanı Naxçıvan Muxtar Respublikasından keçməklə Türkiyə ilə birləşdirən Zəngəzur marşrutu üzrə nəqliyyatın istifadəyə verilməsi 2030-cu ilə planlaşdırılır. İllik 5,5 milyon sərnişin və 15 milyon ton yükdaşıma qabiliyyətinə malik olacaq bu xətt təkcə logistika imkanları baxımından deyil, həm də tikinti keyfiyyəti, tunel və dizaynı baxımından qabaqcıl mühəndislik nümunəsi olacaq. Naxçıvan-İğdır-Qars dəmir yolu layihəsi muxtar respublikanın nəqliyyat və iqtisadi potensialını artıracaq, eyni zamanda beynəlxalq ticarətə yeni imkanlar qazandıracaq.

Naxçıvan-İğdır-Qars dəmir yolu təkcə bir regionun inkişafına hesablanmayıb, Cənubi Qafqaz və daha geniş Avrasiya məkanında formalaşan yeni nəqliyyat sisteminin mühüm tərkib hissəsi rolunu oynayacaq bu layihə bütöv coğrafiyaya siyasi, iqtisadi dividendlər gətirəcək. Xətt həm Zəngəzur dəhlizinin açılması perspektivi, həm də Bakı-Tbilisi-Qars dəmir yolu ilə inteqrasiya baxımından xüsusi strateji əhəmiyyət kəsb edir. Dəmir yolu Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlığın real infrastruktur layihələrin də təzahürü kimi qiymətləndirilir.

İqtisadi baxımdan layihənin dəyəri olduqca yüksəkdir. Qeyd etdiyimiz kimi, bu dəmir yolu xətti vasitəsilə illik 15 milyon ton yük daşınması nəzərdə tutulur ki, bu həcm region üçün ciddi tranzit gəlirləri deməkdir və xüsusilə Azərbaycanın tranzit ölkə kimi mövqeyini gücləndirəcək. Daşınma xərclərinin azalması ixrac məhsullarının rəqabət qabiliyyətini artıracaq. Yeni xətt həm regional, həm də beynəlxalq daşımaları təmin edəcək şəkildə planlaşdırılır ki, bu baxımdan, dünyanın siyasi və iqtisadi cəhətdən güclü ABŞ və Çin kimi ölkələrinin də marağı bu yolda kəsişəcək. Başqa sözlə, Donald Trampın TRIPP layihəsi və Si Çinpinin "Bir kəmər, bir yol" təşəbbüslərinin də eyni anda Zəngəzur dəhlizi üzərindən reallaşması Naxçıvan-İğdır-Qars dəmir yolunun əhəmiyyətini, böyük mənada, üzə çıxaracaq. Bu təşəbbüslərin paralel şəkildə inkişafı Naxçıvan-İğdır-Qars dəmir yolunu yalnız regional deyil, həm də qlobal ticarət şəbəkəsinin mühüm tərkib hissəsinə çevirəcək. Xüsusilə Çin-Avropa istiqamətində ildən-ilə artan yük daşınmaları fonunda bu xətt alternativ və daha



çevik marşrut kimi çıxış edərək mövcud nəqliyyat dəhlizlərinin yükünü qismən azaldacaq. Yüklərin bir hissəsinin Bakı-Tbilisi-Qars xətti ilə, digər hissəsinin isə Zəngəzur dəhlizi və Naxçıvan üzərindən daşınması logistika sistemində balans və elastiklik yaradaraq çatdırılma müddətlərinin qısalmasına və xərclərin optimallaşdırılmasına şərait yaradacaq.

Bununla yanaşı, layihənin iqtisadi təsiri yalnız tranzit gəlirləri ilə məhdudlaşmır, daha geniş sosial-iqtisadi nəticələr vəd edir. Belə ki, dəmir yolunun inşası ilə paralel olaraq logistika mərkəzlərinin, müasir anbar komplekslərinin, sənaye parklarının və sərhəd ticarət zonalarının yaradılması planlaşdırılır. Bu da regionda iqtisadi fəallığın artmasına səbəb olacaq. Yeni infrastruktur investisiyaların cəlb olunmasını sürətləndirəcək, kiçik və orta biznesin inkişafına təkan verəcək və yerli istehsalın ixrac imkanlarını genişləndirəcək. Xüsusilə Naxçıvan üçün bu layihə iqtisadi canlanmanın əsas hərəkətverici qüvvələrindən birinə çevrilə bilər. Muxtar respublikanın uzun illər məhdud nəqliyyat imkanlarından sonra belə bir beynəlxalq dəhlizə qoşulması onun iqtisadi coğrafiyasını dəyişdirərək ticarət, turizm və xidmət sektorlarında yeni imkanlar açacaq. Eyni zamanda əhalinin məşğulluq səviyyəsinin yüksəlməsi, gəlirlərin artması və regionda həyat keyfiyyətinin yaxşılaşması kimi mühüm sosial nəticələr də gözlənilir.

Bütün sadalanan bu və digər amillərə dayanaraq əminliklə vurğulamaq olar ki, Naxçıvan-İğdır-Qars dəmir yolu layihəsi yalnız nəqliyyat infrastrukturu kimi deyil, həm də regional inteqrasiya, iqtisadi inkişaf və qlobal ticarət əlaqələrinin gücləndirilməsi baxımından strateji əhəmiyyət daşıyan çoxşaxəli bir təşəbbüs olacaq. Bu layihənin reallaşması ilə Cənubi Qafqazın beynəlxalq nəqliyyat və logistika xəritəsində rolu əhəmiyyətli dərəcədə artacaq, region Şərq ilə Qərb arasında etibarlı və rəqabətqabiliyyətli tranzit məkanına çevriləcək. Zəngəzur dəhlizi və Bakı-Tbilisi-Qars xətti ilə birlikdə bu dəmir yolu regionda vahid və güclü nəqliyyat şəbəkəsi yaradaraq Azərbaycanın, o cümlədən də onun Naxçıvan Muxtar Respublikasının gələcək iqtisadi inkişafının əsas sütunlarından birinə çevriləcək.

**"Şərq qapısı"**

# Naxçıvanda su təminatının yaxşılaşdırılması istiqamətində işlər davam edir

Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarının səmərəli idarə olunması, əkin sahələrinin suvarılması və əhalinin içməli su təminatının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu sahədə görülən işlər həm meliorasiya sistemlərinin yenilənməsi, həm də yeni layihələrin icrası ilə diqqət çəkir.

Görülən işlərlə bağlı Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin əməkdaşı Lalə Yusifova bildirib ki, 2026-cı ilin mart ayının sonunda su anbarlarında 165,15 mln m³ su ehtiyatı mövcud olmuşdur. Cari ilin yanvar-mart aylarında su istifadəçilərinə verilən suyun müqabilində 1354 hektar torpaq sahəsi suvarılmışdır. Qeyd olunub ki, 2026-cı ilin yanvar-mart ayı ərzində 0,1 km selə qarşı istiqamətləndirici bənd qurulmuş, 83,51 km beton və torpaq kanallar, 86,17 km ara arxlar, 15,33 km kollektor lildən təmizlənmiş, 1,83 km içməli su, 0,28 km kanalizasiya xətti çəkilmişdir. Eyni zamanda 8,22 km mövcud içməli su xətlərində, 1,1 km kanalizasiya xətlərində, 1,33 km suvarma boru xətlərində, 5,42 km təzyiqli boru xətlərində, 0,48 km isə kaptajlarda təmir-bərpa işləri aparılmışdır.

Görülən meliorativ işlər nəticəsində Şərur rayonunun 94 ha, Babək rayonunun 245 ha olmaqla, ümumilikdə, 339 ha torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır. Həmçinin 2026-cı ilin yanvar-mart ayında Kəngərli rayonunda 8 kəhrizdə cari təmir işləri yekunlaşdırılmış, 1 kəhrizdə isə cari təmir işləri davam etdirilir. Suvarma və içməli su mənbəyi kimi istifadə olunan subartezian quyularının 5 ədədinə yeni nasos quraşdırılmış, 60 ədədi isə əsaslı təmir olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası prioritet istiqamət kimi hədəflənmiş və bu kontekstdə işlər uğurla davam etdirilmiş, bununla bağlı satınalmalar həyata keçirilmişdir. Bu satınalmalar muxtar respublikanın su təminatının yaxşılaşdırılması məqsədilə həm içməli su təchizatı, həm də suvarma su təminatı ilə bağlı layihələrin icrası ilə əlaqədar olmuşdur. Bildirilib ki, proqramın icrası çərçivəsində muxtar respublikanın su təminatının yaxşılaşdırılması məqsədilə həm içməli su təchizatı, həm də suvarma su təminatı ilə bağlı müvafiq layihələr həyata keçirilir.

Belə ki, "Əlincəçaydan su götürən və Culfa rayonunun ərazisindəki Bənəniyar su anbarını qidalandıran kanalın yenidən qurulması", "Babək rayonunun Nehrəm qəsəbəsinin ərazisində 1000 ha torpaq sahəsinin su təminatını yaxşılaşdırmaq üçün "Araz-1" və "Araz-2" iki pilləli nasos stansiyasının və boru xəttinin yenidən qurulması" və "Babək rayonunun Çeşməbasar və Güznüt kəndlərinin, ərazisində, ümumilikdə, 240 ha torpaq sahəsinin su təminatını və meliorativ vəziyyətini yaxşılaşdırmaq üçün qapalı suvarma və drenaj şəbəkəsinin tikintisi" layihələri icra olunur.

Bundan başqa, "Arpaçay sağ və sol sahil magistral kanallarının yenidən qurulması" layihəsi üzrə layihələndirmə işləri aparılmış, müvafiq ekspertiza rəyi alınmışdır. Tikinti-quraşdırma işlərinin aparılması üçün podratçı şirkətlərlə müqavilə imzalanmış və hazırda tikinti işlərinin aparılması üçün hazırlıq işləri görülür.

Həmçinin qəsəbə və kəndlərdə içməli su təchizatı və kanalizasiya sistemlərinin qurulması işlərinin, o cümlədən əvvəllər başlanılmış, lakin tamamlanmamış layihələrin davam etdirilməsi məqsədilə texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədlərinin hazırlanması işləri aparılır. Bu çərçivədə "Sədərək rayonunun Heydərabad qəsəbəsi, Sədərək və Qaraağac kəndlərinin su təchizatı və kanalizasiya sistemləri üzrə yarım qalmış işlərin davam etdirilməsi" üzrə layihə-smeta sənədlərinin ekspertiza rəyi alındığı və tikinti işlərinin aparılması üçün qalib podratçı ilə müqavilə bağlandığı bildirilib. Hazırda tikinti-quraşdırma işlərinin aparılması üçün müvafiq hazırlıq işləri görülür.

Beləliklə, həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasında su təsərrüfatının inkişafına, torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılmasına və əhalinin içməli suya olan tələbatının daha dolğun ödənilməsinə xidmət edir.



**Zəhra VƏLİYEVA**

# Naxçıvanda təhsilin inkişafı yeni mərhələdə



**Ulu Öndər Heydər ƏLİYEV:**

*“Təbii sərvətlər tükənən dəyərlərdir, ancaq təhsil, bilik, elm əbədi, hər bir ölkənin gücləndirilməsinə töhfə verən amildir”.*















## Müasirtipli məktəblər təhsilə göstərilən qayğının ifadəsidir

Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyinə olan ümidlərini ilk olaraq gənc nəslə bağlayır. Dünyanın istənilən ölkəsində gənclər sosial-iqtisadi inkişafın aparıcı qüvvəsidir. ***“Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir”***, – deyən Ümummilli Lider Heydər Əliyev Azərbaycanda hakimiyyətdə olduğu illərdə hər sahədə olduğu kimi gənclərin təlim-tərbiyəsi, təhsilə cəlbini də öz himayəsi, qayğısı ilə əhatə edib. Sovetlər dönəminin ən çətin illərində belə Azərbaycan gəncinin təhsili üçün əlindən gələni edib, onları sovetlərin müxtəlif yerlərində təhsil almağa göndərib, azərbaycanlı zabitlərin yetişməsində böyük işlər görüb. Azərbaycan müstəqillik qazandıqdan, sabitlik bərqərar edildikdən sonra ən çətin günlərimizdə yenidən hakimiyyətə gələn və dövləti yox olmaqdan xilas edən Ulu Öndər çox keçmədi ki, Azərbaycan gəncinin fəaliyyət istiqamətini müəyyənləşdirən mühüm fərman və sərəncamlar imzaladı. Gənclər dövlət rəhbərinin qayğısı ilə həyatımızın bütün sahələrində quruculuq prosesinə, dövlət, qanunverici və icraedici orqanlarda rəhbər vəzifələrə cəlb olundular. Hərtərəfli biliyə malik gənc nəslin yetişdirilməsinə, onların asudə vaxtlarının səmərəli təşkilinə hər cür şərait yaradıldı. Müasir məktəblər, gənclik mərkəzləri, idman zalları, idman kompleksləri, istifadəyə verildi.

Bu gün bölgələrimizə yolumuz düşəndə ilk diqqəti çəkən binaları ali təhsil ocaqlarının binalarından heç də seçilməyən məktəblər olur. Ən ucqar sərhəd yaşayış məntəqələrində, ən kiçik kəndlərdə tikilən müasirtipli məktəb binaları regionda təhsilin inkişafına göstərilən qayğının ifadəsidir. Geniş, işıqlı sinif otaqları, laboratoriyaları, fənn kabinələri, elektron lövhəli otaqları, kompüter sinifləri, müasir idman zalları ilə bu məktəblər şagirdlərin ixtiyarına verilib, onların elm, bilik dünyasına aparan yollarını sonuna qədər açıb. Bu yolları ömür yolu seçənlərin sayı ilbəil artır. Onların səsi ölkəmizlə yanaşı, dünyanın bir çox ali təhsil ocaqlarından, elmi-tədqiqat institutlarından gəlir. İllərlə çəkilən əziyyətin bəhrəsini isə görməkdəyik. Naxçıvanlı gənclər Ulu Öndərin arzularını yerinə yetirmək yolunda ölkə başçısının onlara göstərdiyi qayğı ilə ildən-ilə daha çox oxuyur, təhsil alır və yüksək nəticələr göstərərək uğurdan-uğura addımlayırlar. Təsadüfi deyil ki, 2024-2025-ci tədris ili üzrə Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında 500-700 intervalında nəticə göstərən naxçıvanlı məzunların sayı son 30 ilin ən yüksək göstəricisi olub. Naxçıvan Muxtar Respublikasının ümumi təhsil müəssisələrini bitirən 379 məzun 500-700 intervalında bal toplayıb. Bu göstəricilər təhsilə göstərilən qayğının nəticəsidir.

## STEAM Mərkəzində innovativ təhsil mühiti yaradılıb

Son illərdə təhsil sahəsində sürətlə inkişaf edən bir yanaşma olan STEAM (Elm, Texnologiya, Mühəndislik, İncəsənət və Riyaziyyat) təhsili, qloballaşan dünyada gənclərin gələcəyin bacarıqları ilə silahlanmasına yönəlmişdir. Bu yanaşma, təkcə elmi və texniki biliklərin inkişafına deyil, eyni zamanda yaradıcılıq, tənqidi düşünmə və problem həlletmə kimi mühüm bacarıqların inkişafına da töhfə verir. Naxçıvan şəhərində yerləşən STEAM Mərkəzi ilə bərabər məktəblərdə yaradılan STEAM otaqları muxtar respublikada məktəblilərin istedadlarının üzə çıxarılması baxımından mühüm əhəmiyyət daşıyır. Yaradılan müasir təhsil mühiti, xüsusilə STEAM Mərkəzində yaradılan müasir şərait şagirdlərə öz potensiallarını real layihələr üzərində sınamağa imkan verir. Ən müasir texnologiyalar, modullar, sensorlar və innovativ alətlərlə tanış olan gənclər artıq yalnız xəyal etmək deyil, ideyalarını gerçəyə çevirmək fürsəti qazanıblar. Bu isə onların özünəinamını artırır, araşdırmağa, qurmağa, kəşf etməyə təşviq edir. Nəticə olaraq, bu gün şagirdlərimiz sərhədləri aşmağa hazır, daim öz üzərində çalışan, yenilikçi düşüncəyə malik bir nəsil kimi formalaşırlar.

Mərkəzdə KİDS, 3D Dizayn, CNC-Lazer texnologiyaları, Pilotsuz Uçuş aparatları, Proqramlaşdırma, Robotexnika, eləcə də İdeya Emalatxanası kimi xüsusi tədris bölmələri fəaliyyət göstərir. Hər kabinə özünəməxsus praktik yanaşması ilə seçilir və şagirdlərin düşünmə tərzini yeni səviyyəyə yüksəltməkdə böyük əhəmiyyət daşıyır. Mərkəzdə təhsilin əsas hədəfi şagirdlərin müstəqil şəkildə robot hazırlamaq bacarığı qazanmasıdır. Bu məqsədlə tədris alan gənclər hər il fərqli kabinələrdə bilik və təcrübələrini genişləndirirlər. Onlar əvvəlcə əsas mühəndislik düşüncəsini, daha sonra dizayn, proqramlaşdırma və mexaniki quruluşların qurulması prinsiplərini mənimsəyir, nəticədə isə tam sərbəst şəkildə öz robotlarını yarada biləcək səviyyəyə çatırlar. Yəni şagirdlər burada yalnız nəzəri biliklərlə kifayətlənmir, həm də real layihələr üzərində çalışaraq komanda işi, problem həlli və yaradıcılıq kimi bacarıqlarını inkişaf etdirirlər. Bu isə onların gələcək peşə seçimində mühüm rol oynayır.

## Ali təhsil qədər əhəmiyyətli sahə – peşə təhsili

İqtisadiyyatın davamlı inkişafı keyfiyyətli işçi qüvvəsinin formalaşmasını tələb edir və əmək bazarına uyğun kadr hazırlığının həyata keçirilməsi zərurətini yaradır. Dövlət Proqramının icrası ilə əlaqədar Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbi publik hüquqi şəxsi və Naxçıvan Şəhər Peşə Liseyi birləşdirilərək onların bazasında “Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzi” publik hüquqi şəxsi yaradılıb, Şərur və Ordubad Texniki Peşə və Sürücülük məktəbləri isə “Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində Şərur Peşə Liseyi” və “Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində Ordubad Peşə Liseyi” adlandırılaraq publik hüquqi şəxsə çevrilib. Hazırda Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzində 416, Şərur Peşə Liseyində 101, Ordubad Peşə Liseyində isə 156 tələbə olmaqla, ümumilikdə, 673 şəxs müxtəlif peşə istiqamətlərində təhsil alırlar.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Regional Peşə Hazırlığı Mərkəzi gənclərin peşələrə yiyələnməsi işinə öz töhfəsini verir. Bu təhsil müəssisələri ən yeni texnologiyalarla, elektron lövhələr, kompüter dəstləri ilə təchiz olunub, emalatxanalar yaradılıb. Bütün bunlar gənclərin keyfiyyətli təhsil almalarına zəmin yaradır. Hazırda peşə təhsili və peşə hazırlığı proqramları əmək bazarının, o cümlədən işəgötürənlərin tələblərinə uyğun ixtisaslar üzrə kadr hazırlığını həyata keçirir. Muxtar respublikada sağlam təhsil mühitinin yaradılması gənclərin müvafiq peşələrə yiyələnərək məşğulluqlarının təmin olunmasına, eləcə də müəssisə və təşkilatların, həmçinin özəl sektorun ixtisaslı kadrlarla təminatına öz müsbət təsirini göstərir.

## Dövlət siyasəti gənclər üçün yeni bilik, yaradıcılıq və peşəkar inkişaf imkanları yaradır

Görülən işlərin nəticəsi olan bugünkü gəncliyimizin sorağı ölkəmizin və dünyanın müxtəlif təhsil ocaqlarından gəlir. Bu gün onlar beynəlxalq yarışlarda bayrağımızı dalğalandıran, himnimizi səsləndirən qürurverici gəncliyə çevriliblər. Naxçıvan Muxtar Respublikasında əldə olunan mühüm nailiyyətlərin əsasında isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” dayanır. Proqramda elmin və təhsilin modernləşdirilməsi, tədqiqat mühitinin gücləndirilməsi, innovativ yanaşmaların tətbiqi və gənc mütəxəssis hazırlığının keyfiyyətinin artırılması strateji hədəflər kimi müəyyən olunub. Bu siyasət gənclər üçün yeni bilik, yaradıcılıq və peşəkar inkişaf imkanları yaradır.

**“Şərq qapısı”**

# Eşitmə və danışma məhdudiyyətli şəxslər üçün innovativ texnoloji həll

Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin Kompüter mühəndisliyi ixtisası üzrə IV kurs tələbəsi Dilsuz Zeynallının müəllifi olduğu “ON8 – Neural Gesture Recognition System” adlı kompüter proqramı “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyində qeydiyyatdan keçirilib. Biz də layihə ilə daha yaxından tanış olmaq üçün layihə müəllifi Dilsuz Zeynallı ilə həmsöhbət olduq.

Onun sözlərinə görə, layihənin əsas məqsədi eşitmə və danışma məhdudiyyəti olan insanların cəmiyyətlə daha rahat ünsiyyət qurmasına imkan yaratmaqdır: “Gündəlik həyatda bu insanlar çox vaxt öz fikirlərini qattrşı tərəfə çatdırmaqda çətinlik çəkirlər. Xüsusilə işarə dilini bilməyən şəxslərlə ünsiyyət zamanı bu problem daha qabarıq şəkildə hiss olunur. “ON8 – Neural Gesture Recognition System” məhz bu çətinliyi aradan qaldırmağa yönəlmiş texnoloji həlldir. Layihə çərçivəsində istifadəçilər bədən dili və əl hərəkətləri vasitəsilə ünsiyyət qurur, sistem isə bu hərəkətləri xüsusi texnologiya vasitəsilə səsli ifadəyə çevirir. Kameralar və sensorlar vasitəsilə istifadəçinin əl və bədən hərəkətləri izlənilir, əldə




olunan məlumatlar proqram tərəfindən analiz edilir və nəticədə, avtomatik şəkildə səsli formaya salınır. Bu isə işarə dilini bilməyən insanların belə qarşı tərəfi asanlıqla başa düşməsinə şərait yaradır. Beləliklə, ünsiyyət daha əlçatan və effektiv hala gəlir”.

Layihənin texniki tərəfi də olduqca maraqlıdır: “Sistem yalnız mövcud texnologiyalarla kifayətlənmir, gələcək inkişaf üçün də geniş perspektivlər vəd edir. Növbəti mərhələdə layihədə flex sensorların istifadəsi nəzərdə tutulur. Bu sensorlar əl və barmaq hərəkətlərini daha dəqiq qeydə alaraq sistemə ötürəcək. Nəticədə, istifadəçi, sadəcə, əlini hərəkət etdirməklə fikrini daha dəqiq və sürətli şəkildə ifadə edə biləcək. Bu isə sistemin həssaslığını və funksionallığını daha da artıracaq”.

Dilsuz Zeynallı vurğulayır ki, gələcəkdə sistemə inteqrasiya olunmuş mikrofon vasitəsilə qarşı tərəfin danışığının da qəbul edilməsi planlaşdırılır: “Bu yenilik sayəsində ünsiyyət yalnız biristiqamətli yox, ikitərəfli olacaq. Qarşı tərəfin danışığı da sistem tərəfindən emal edilərək istifadəçi üçün daha əlçatan formada təqdim olunacaq. Bu isə layihəni daha da funksional və universal hala gətirəcək. “ON8 – Neural Gesture Recognition System” eyni zamanda sosial məsuliyyət nümunəsidir. Layihə insanların bir-birini daha yaxşı anlamasına, cəmiyyətdə inklüzivliyin artmasına xidmət edir. Əgər texnologiyadan düzgün istiqamətdə istifadə etsək, texniki ilə yanaşı, həm də humanitar problemlərin həllinə də töhfə verə bilərik”, – deyə layihə müəllifi qeyd edir.

**Elnurə CƏFƏROVA**

**Naxçıvan Dövlət Universitetində ali təhsil müəssisələrinin tələbələri arasında artıq ənənəvi hala çevrilmiş Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103 illiyinə həsr olunan "Bədii yaradıcılıq müsabiqə-festivalı" çərçivəsində Naxçıvana səfər edən Əməkdar incəsənət xadimi Baba Vəziroğlu keçirilən müsabiqə-festivaldan sonra öz fikirlərini bölüşüb.**

## Naxçıvan mənim üçün doğma məkandır, həmişə bura böyük məmnuniyyətlə gəlirəm




"Naxçıvan Dövlət Universitetində keçirilən ənənəvi tədbirdə iştirak edirik, burada istedadlı tələbələrin yaradıcılığına qiymət verilir və Ulu Öndər Heydər Əliyevin xatirəsi yad edilir.

Bu tədbir artıq ənənəvi hal alıb. Təbii ki, hər bir müsabiqə-festivalda olduğu kimi mötəbər bir münsiflər heyəti tələbələrimizin yaradıcılığına, istedadına qiymət verir. Artıq neçə illərdir ki, biz Naxçıvana qonaq gəlirik. Necə deyərlər, həm ziyarət, həm ticarət. Çünki Naxçıvanın o gözəl yerlərini, görməli yerlərini, müqəddəs yerlərini bir daha ziyarət edirik. Həm də Naxçıvan Dövlət Universitetinin ən istedadlı tələbələrini seçirik və Heydər Əliyevin doğum günü ərəfəsində onları qaliblər sırasında Heydər Əliyev adına Sarayda qaliblərin konsertinə dəvət edirik.

Təbii ki, uşaqlarımız hamısı istedadlıdır. Lakin müsabiqənin öz qayda-qanunları var. Ən yaxşılarını seçirik. Rəqs, mahnı, folklor, bədii qiraət, xor kollektivləri, rəqs kollektivləri, yəni diapazon genişdir. Şəxsən özüm öz təəssüratımı danışım ki, mən hər dəfə Naxçıvana gələndə böyük məmnuniyyətlə gəlirəm. Həmin gün bütün işlərimi kənara qoyuram. Olur ki, başqa bölgələrə səfər olanda mənim başqa işlərim daha ön plana çıxır, müəyyən yerlərə gedə bilmirəm. Amma hər dəfə Naxçıvanın adını eşidəndə deyirəm ki, mən mütləq bura getməliyəm.

Çünki mənim üçün çox doğma bir məkandır. Doğma bir yerdir, hər guşəsi gəncliyimi xatırladır mənə. Mən sovet dönəmində iki il burada hərbi xidmətdə olmuşam. Elə bu universitetin hasarının o yanında, Naxçıvan şəhərinin özündə və Qıvraq kəndində qulluq eləmişəm. Yəni hər guşəsi, hər qarışı mənə doğmadır bu yerlərin. İnsana bu torpağı doğmalaşdıran, müqəddəsləşdirən bu hava, su, təbiət deyil, insanların özüdür. Mən o gözəl insanları yaxından tanımışam, evlərində qonaq olmuşam. Görmüşəm ki, onlar əsgərlərə necə ehtiramla, sevgi ilə, qayğı ilə yanaşırlar. Mən bunun şahid olmuşam. Bunu kitablarda oxumamışam, televiziyada eşitməmişəm. Mən özüm şəxsən buna şahid olmuşam.

Biz hər dəfə bu yaradıcı kollektivlərdə, xüsusən Naxçıvan Dövlət Universitetinin yaradıcılıq kollektivində xüsusi irəliləyiş görürük, tərəqqi görürük. Bizə elə gəlir ki, elə keçən il gördüyümüz uşaqlar bu dəfə yenidən qəliblər. Amma xeyr, təzə-təzə istedadlar hər il meydana çıxır. Və doğrudan da, Naxçıvan Dövlət Universiteti respublikada analoqu olmayan universitetdir. Bura əsl universitet adını doğruldan bir təhsil ocağıdır. Çünki bilirsiniz ki, Azərbaycanda bir çox universitetlər ancaq bir istiqamətdədir. Yəni universitet adlansa belə, bir profil üzrə fəaliyyət göstərirlər.

Bura elə bir universitetdir ki, incəsənəti, tibb fakültəsi və təbii ki, iqtisadi ixtisasları, fakültələri, çoxlu xaricdən gələn tələbələri ilə birlikdə burada bir növ beynəlmiləl universitet yaradıb. Hər il nəinki yaradıcılıq fakültələrinin fəaliyyətində, ümumiyyətlə, universitetin fəaliyyətində biz irəliləyiş görürük. Görürük ki, universitetin taleyi əmin əllərdədir. Xüsusilə mənim əziz dostum, bizim dəyərli ziyalımız, sizin rektorunuz Elbrus müəllimin xüsusi xidmətlərini qeyd etmək istəyirəm. Mən deyərdim ki, Elbrus müəllim əsl ailə başçısıdır. Doğrudan da, 15 minlik böyük kollektivə necə bacarıqla, necə müdrikliklə cavan yaşına baxmayaraq, bir ağsaqqal kimi rəhbərlik edir və bu da, təbii ki, təhsilimizin, eyni zamanda bu gün bizim iştirak etdiyimiz yeni missiyalarla incəsənətimizin xeyrinə işləyir.

Mən bir daha Naxçıvan Dövlət Universitetinin bütün tələbələrinə, başda Elbrus müəllim olmaqla uğurlar diləyirəm. Necə deyərlər, məşhur bir söz var: "Sükanı belə saxlamaq lazımdır". Çünki Ulu Öndər demişkən: ***"Təhsil millətin gələcəyidir"***. Çünki təhsil olmasa, heç bir şey yoxdur. Nə iqtisadiyyat, nə siyasət, nə də mədəniyyət, heç bir şey ola bilməz. Ona görə təhsildən möhkəm yapışmalıyıq. Təhsil bizim həyatımızın, cəmiyyətimizin, siyasətimizin prioritetidir və nə yaxşı ki, Naxçıvan Dövlət Universiteti məhz bu yolu seçib...

Mən həmişə əlvida demirəm. Bir yerdən bir yerə gedəndə hələlik, yeni görüşlərədək deyirəm".

## Naxçıvana hər dəfə gələndə bütün əhvalım dəyişir, sevinc hissi yaşayıram




Naxçıvan Dövlət Universitetində ali təhsil müəssisələrinin tələbələri arasında artıq ənənəvi bir hala çevrilmiş Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103 illiyinə həsr olunan "Bədii yaradıcılıq müsabiqə-festivalı" keçirilib. Yaradıcılıq müsabiqəsi çərçivəsində Naxçıvana səfər edən münsiflər heyətinin tərkibində dəyərli incəsənət xadimləri də yer alıb. Azərbaycan Respublikasının Xalq artisti Gülyanaq Məmmədova keçirilən müsabiqə festivalından sonra öz fikirlərini bölüşüb.

"Bizə doğma və əziz olan Naxçıvanımızdayıq. Mən bura hər dəfə gələndə buranın gözəlliyini vurğulayıram. Bu yeniliyi, gözəlliyi, təşkilatçılığı açıqdan hiss edirik. Bilmirəm nədəndir, amma Naxçıvana hər dəfə gələndə bütün əhvalım dəyişir, sevinc hissi yaşayıram. Naxçıvanın havasındandır, insanlarının mehriban münasibətindəndirmi bilmirəm. Naxçıvan Dövlət Universitetinə, xüsusilə də Elbrus müəllimə öz təşəkkürlərimi bildirirəm. Qəlblər gözəl olanda burada iş prosesi, təhsil, kollektivçilik, səmimiyyət, hörmət, mehribanlıq, mədəniyyət yüksək olur. Bizim Naxçıvana səfərimizdə Naxçıvan Dövlət Universitetinin rolu danılmazdır, buna görə başda rektor olmaqla bütün universitet kollektivinə təşəkkür edirəm. Bu gün də hər il olduğu kimi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təşkilatçılığı ilə keçirilən yaradıcılıq müsabiqəsinin seçim turundayıq. Universitetin səhnəsini istedadlı gənclər bəzəyir. Çox gözəl hazırlıq prosesi var. Azərbaycanımızın musiqisinə, incəsənətinə uyğun olaraq böyük məsuliyyətlə hazırlaşıblar. Onu da qeyd etmək lazımdır ki, bu tələbələrin əksəriyyəti qeyri-peşəkardırlar. Əksəriyyəti incəsənətdən kənar, başqa fakültələrin tələbələridir. Lakin buna baxmayaraq, onlar çox istedadlıdırlar, məhz elə bizim məqsədimiz də həmin istedadları üzə çıxarmaqdır. Biz bu gün də çox gözəl istedadlar kəşf etdik. Konsertin açılışında Elbrus müəllimin öz iştirakı, kiçik konsert proqramının bizə təqdim olunması bunlar hamısı sevgidən, hörmətdən və diqqətdən irəli gəlir. Biz bir çox universitetlərdə oluruq, müxtəlif qarşılanmalar görürük. Naxçıvan isə bizim gəlişimizdə özünəməxsus yer tutur. Mənə Naxçıvana gedirik deyiləndə həmin günə olan iş qrafikimi təxirə salıb, mən mütləq Naxçıvana getməliyəm deyirəm. Bizim bütün münsiflərimizin fikri eynidir, hər birimiz sevə-sevə Naxçıvana gəlirik. Həm işimizi sevirik, həm sizləri, həm də bu universiteti. Bunların hər biri birbirini tamamlayır. Bir daha Naxçıvanda, bu universitetdə olduğumuz üçün çox şadıq. Mən istedadlı gənclər arasından artıq gözəl ifalar seçdim, onlardan biri də Ataxan Quliyevdir. Səhv etmirəmsə, o, fizika və riyaziyyat üzrə təhsil alır, lakin buna baxmayaraq, sanki o, əsl xanəndədir. İnanıram ki, mən ona gözəl bir yer verəcəyəm. Rəqslər, aşıq musiqiləri, bədii qiraətlər hər biri çox gözəldir. Mən sizə uğurlar arzulayıram, təhsillə bərabər olaraq mədəniyyətimizə olan sevgi bu gün Naxçıvan Dövlət Universitetində öz əksini tapır".

## NDU-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103 illiyinə həsr olunmuş "Bədii yaradıcılıq müsabiqə-festivalı" keçirilib

Naxçıvan Dövlət Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103 illiyinə həsr olunmuş "Bədii yaradıcılıq müsabiqə-festivalı" keçirilib, festival öncəsi universitetin rektoru Elbrus İsayev münsiflər heyətini qəbul edib.

Rektor festival çərçivəsində universitetdə olan qonaqları səmimi salamlayaraq onların iştirakını yüksək qiymətləndirib.

Görüşdən sonra Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi, Naxçıvan Dövlət Universiteti və universitetin Tələbə Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə keçirilən "Bədii yaradıcılıq müsabiqə-festivalı"nın açılış mərasimi baş tutub.

Öncə universitetin İncəsənət fakültəsində tələbələrin rəsm əsərlərindən və dekorativ-tətbiqi sənət nümunələrindən ibarət sərgiyə baxış olub, qonaqlara duzdan hazırlanmış müxtəlif zinət əşyaları hədiyyə edilib.

NDU-nun rektoru Elbrus İsayev ali təhsil müəssisələrinin tələbələri arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103 illiyinə həsr olunmuş "Bədii yaradıcılıq müsabiqə-festivalı"nı açıq elan edərək qonaqları salamlayıb. Rektor çıxışında artıq ənənə halını alan və bu il beşinci dəfə təşkil olunan müsabiqə-festivalın milli mədəniyyətimizin inkişafına verdiyi töhfələrdən bəhs edib. Qeyd olunub ki, bu cür tədbirlər tələbələrin yaradıcılıq potensialının üzə çıxarılmasında, onların istedadlarının aşkarlanması, qiymətləndirilməsi və geniş ictimaiyyətə tanıdılmasında mühüm rol oynayır.

Tədbir NDU-nun Xor kollektivinin və NDU nəzdində Musiqi Kollecinin "Aşıqlar qrupu"nun təqdimatında rəngarəng çıxışlar ilə davam edib.

Sonra müsabiqəyə start verilib. Müsabiqə çərçivəsində milli və dünya xalqlarının çalğı alətlərinin ifası, bədii qiraət, vokal, saz və rəqs kateqoriyaları üzrə iştirakçıların çıxışları izlənilib. Tələbələrdən ibarət solo ifaçılar, bədii qiraətçilər, həvəskar rəqqas və musiqiçilər, eləcə də orkestr və ansambllar, rəqs kollektivləri öz bacarıqlarını nümayiş etdiriblər.

"Bədii yaradıcılıq müsabiqə-festivalı" çərçivəsində münsiflər heyəti tələbələr üçün ustad dərsi keçiblər.

Azərbaycan Respublikasının Xalq artisti Gülyanaq Məmmədova və Əməkdar artist Rəşad Haşımov İncəsənət fakültəsində tələbələrlə görüşüblər.



Universitetin Elmi Kitabxanasında Əməkdar incəsənət xadimi Baba Vəziroğlu ilə görüş baş tutub. Diskussiya formatında davam edən görüşdə Baba Vəziroğlu müəllim və tələbələrin suallarını cavablandırıb, öz şeirlərini səsləndirib.

Azərbaycan Respublikasının Xalq artisti, Bakı Xoreoqrafiya Akademiyasının Xarici əlaqələr üzrə prorektoru Təranə Muradova ilə ustad dərsi universitetin İdman Kompleksində təşkil olunub. Təranə Muradova müxtəlif rəqs elementləri və kompozisiyaları tələbələr üçün əyani şəkildə nümayiş etdirib.

Qarabağ Universitetinin İncəsənət fakültəsinin İfaçılıq və musiqi müəllimliyi kafedrasının müdiri, tanınmış tarzən Arslan Növrəsli ilə NDU-nun İncəsənət fakültəsində görüş keçirilib. Müxtəlif musiqi janrlarını – klassik, caz və xalq mahnılarını öz yaradıcılığında birləşdirən sənətkar, xüsusilə tar, alətinin çoxşaxəli imkanları, caz sənətinin incəlikləri barədə ətraflı məlumat verib.

## Hüseyn Fərəcoğlunun 100 illik yubileyi qeyd olunub



Naxçıvanda böyük mütəfəkkir Hüseyn Cavidin ev-muzeyində Hüseyn Fərəcoğlunun 100 illik yubiley tədbiri keçirilib.

Tədbir Hüseyn Cavidin ev-muzeyinin direktoru Tünzalə Dilanova və şairin nəvəsi, tarix elmləri doktoru, professor Sevinc Abbasovanın çıxışları ilə başlanılıb.

Tədbirin əsas məqamlarından biri "Sənət qartalı" poemasının təqdimatı olub. Bu təqdimat adi ədəbi hadisə deyil, sənətin ucalığını, sözün qüdrətini və şair ruhunun əbədiliyini əks etdirən bir mərasim kimi qeyd olunub. Hüseyn Fərəcoğlunun qələmindən yaranan əsər Hüseyn Cavidə ithaf olunmuş mənəvi abidə kimi təqdim edilib.

Daha sonra müxtəlif mövzularda məruzələr təqdim olunub. Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Əməkdar mədəniyyət işçisi Asim Yadigar, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, "Tusi" nəşriyyatının baş redaktoru Qafar Qərib, AMEA Naxçıvan Bölməsi Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya elmləri doktoru Ramiz Qasımov, AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktor müavini, dosent Elxan Yurdoğlu, Prezident mükafatçısı Muxtar Qasımzadə çıxış ediblər.

Çıxış edənlər sırasında Xalq artisti Həsən Ağasoy və "Cahan Holding"in prezidenti, Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının idarə heyətinin sədri, şairin nəvəsi Vüqar Abbasov da yer alıb.

Tədbirdə Türkiyə Cümhuriyyətinin Naxçıvandakı Baş konsulu Asip Kaya və millət vəkili Ülviyyə Həmzəyeva da çıxış edərək ədəbi irsə yüksək dəyər veriblər. Bu, Azərbaycan-Türkiyə qardaşlığının yalnız siyasi deyil, həm də mənəvi və mədəni müstəvidə möhkəm olduğunu bir daha nümayiş etdirib. Sonda iştirakçılar muzeyə baxış keçirib və xatirə şəkilləri çəkilib.

**"Şərq qapısı"**

# Dünya irsindən Naxçıvan abidələrinədək



Hər il 18 aprel tarixi “Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü” kimi qeyd olunur. Bu gün dünyada daha çox Dünya İrsi Günü adı ilə tanınır.

Bu günün əsas məqsədi yalnız tarixi abidələri xatırlamaq deyil, həm də onların qarşılaşdığı təhlükələrə – müharibələrə, təbii fəlakətlərə, urbanizasiya prosesinə, laqeydliyə və iqlim dəyişikliklərinə diqqət çəkməkdir. 18 aprel yalnız keçmişə ehtiram günü deyil, həm də gələcəyə qarşı məsuliyyətin çağırışıdır. Hər bir abidə xalqın tarixinin daşlaşmış yaddaşı, milli ruhunun bədii ifadəsi və sivilizasiyanın izidir. Onları qorumaq, keçmişi anlamaq və gələcək nəsillərə çatdırmaq hər birimizin borcudur.

Azərbaycanın zəngin tarixi və mədəni irsi bu gün yalnız milli sərvət kimi qiymətləndirilmir, həm də beynəlxalq təşkilatlar tərəfindən tanınan və bəşəri irs nümunəsi kimi yüksək dəyər verilən əhəmiyyətli bir mədəniyyət mirasıdır. Xüsusilə UNESCO tərəfindən bir sıra tarixi abidə və obyektlərimizin Dünya İrs Siyahısına daxil edilməsi ölkəmizin qədim sivilizasiya mərkəzlərindən biri olduğunu bir daha təsdiqləyir.

Azərbaycanın beynəlxalq səviyyədə tanınan ən mühüm tarixi abidələrindən biri İçərişəhərdir. Qədim qala divarları, dar küçələri, karvansaraları, məscidləri və orta əsr memarlıq nümunələri ilə zəngin olan İçərişəhər, Azərbaycanın tarixi yaddaşının canlı simvolu hesab olunur. 2000-ci ildə bu kompleks UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmişdir.

Bu kompleksin tərkib hissəsi olan Qız Qalası və Şirvanşahlar Sarayı yalnız Azərbaycan memarlığının deyil, bütün dünya memarlıq sənətinin nadir incilərindən hesab olunur. Tarixi abidələrin qorunması və təqdimatı baxımından böyük əhəmiyyət kəsb edən bu yerlər, Azərbaycanın qədim mədəni irsinin canlı simvoludur. Beynəlxalq aləmdə tanınan digər mühüm abidəmiz isə Qobustan qayaüstü rəsmləridir. 2007-ci ildə UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmiş bu kompleks, ibtidai insanların həyat tərzini, ov səhnələrini, dini ayinlərini və gündəlik məişətini əks etdirən minlərlə qayaüstü təsvirlə zəngindir və bəşəriyyət üçün unikallıq daşıyır.

Şəki Xan Sarayı və Şəkinin tarixi mərkəzi də beynəlxalq səviyyədə tanınan əhəmiyyətli abidələr sırasındadır. 2019-cu ildə bu kompleks UNESCO tərəfindən Dünya İrs Siyahısına daxil edilmişdir. Son illərdə isə Xınalıq kəndi və “Köç yolu” marşrutu da beynəlxalq aləmdə tanınaraq dünya irsi statusunu qazanmışdır, beləliklə, Azərbaycanın qədim mədəniyyət mərkəzlərinin zənginliyi və unikal irsi bir daha təsdiqlənmiş olur.

Böyük Qafqaz dağlarında yerləşən Xınalıq kəndi, yüksək dağ yaylaqları və Aran düzənliklərindəki qışlaq ərazilərini birləşdirən, təxminən, 200 km-lik mövsümi köç marşrutu – “Köç yolu” bu mədəni landşaftın əsas elementlərini təşkil edir. Bu abidə yalnız müəyyən bir məkan deyil, həm də geniş bir coğrafiya və həyat tərzinin canlı mənzərəsidir.

Xınalıq və “Köç yolu” (yaylaq-qışlaq köç yolu) 2023-cü ildə UNESCO tərəfindən Dünya İrs Siyahısına daxil edilmiş və həm etnoqrafik, həm də tarixi-mədəni əhəmiyyətə malik olduğu təsdiqlənmişdir. Bu abidə yalnız bir yer deyil, geniş coğrafi məkan və həyat tərzinin mənzərəsini əks etdirir. Xınalıq kəndi qədimdən bəri yarımköçəri xalqın mərkəzi olub və bu xalqın yaşam tərzi uzun illər boyunca mövsümi yaylaqlara və qışlaqlara dağlıq və aran ərazilər arasında mövsümi köç ənənəsinə əsaslanıb. “Köç yolu” isə bu köçəri heyvandarlıq ənənəsinin praktikasının əsas elementi olmaqla yanaşı, insanla təbiət arasında tarazlaşdırılmış harmoniya yaradan dayanıqlı ekoloji-sosial sistemin nümunəsidir. Bu mədəni landşaft yalnız fiziki coğrafiyanı deyil, həm də köçəri həyat tərzi ilə bağlı mədəni elementləri əhatə edir; qədim yollar, müvəqqəti otlaqlar, gecələmə yerləri, su mənbələri, qəbirlər, dini məkanlar, məscidlər və digər infrastruktur elementləri insan-təbiət münasibətinin əsrlərboyu qorunmuş izlərini nümayiş etdirir.

Azərbaycanın digər qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan da öz zəngin maddi və qeyri-maddi irs nümunələri ilə beynəlxalq aləmdə xüsusi yer tutur. Tarixin müxtəlif mərhələlərində formalaşmış bu abidələr və mədəni dəyərlər beynəlxalq təşkilatlar tərəfindən ardıcıl şəkildə tanınaraq nüfuzlu siyahılara daxil edilmişdir. Bu baxımdan, Naxçıvanın beynəlxalq səviyyədə qəbul olunmuş irs nümunələrinə xronoloji ardıcıllıqla nəzər salmaq xüsusi əhəmiyyət kəsb edir.

Naxçıvanın zəngin maddi və qeyri-maddi mədəni irsi müxtəlif illərdə beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilərək bir sıra nüfuzlu siyahılara daxil edilmişdir. Bu fakt qədim diyarın yalnız Azərbaycanın deyil, bütövlükdə, dünya mədəniyyət tarixinin mühüm mədəniyyət ocaqlarından biri olduğunu bir daha təsdiqləyir. Xronoloji baxımdan ilk mühüm mərhələ 1998-ci ildə “Naxçıvan məqbərələri”nin UNESCO-nun Dünya İrsinin İlkin Siyahısına daxil edilməsi olmuşdur. Bu nominasiya çərçivəsində Möminə xatun türbəsi, Yusif Küseyir oğlu türbəsi, Qarabağlar türbəsi və Gülüstan türbəsi dünya əhəmiyyətli memarlıq abidələri kimi tanınmış, beləliklə, Naxçıvan memarlıq məktəbinin zəngin ənənələri beynəlxalq səviyyədə təsdiq olunmuşdur. Xüsusilə Əcəmi Naxçıvaninin memarlıq dühasını əks etdirən Möminə xatun və Yusif Küseyir oğlu türbələri Şərq memarlıq sənətinin ən nadir incilərindən hesab olunur.

Bunun ardınca, 24 oktyabr 2001-ci ildə Ordubad Tarixi-Memarlıq Qoruğunun UNESCO-nun Dünya İrsinin İlkin Siyahısına daxil edilməsi Naxçıvanın tarixi şəhərsalma mədəniyyətinin beynəlxalq səviyyədə tanınmasında mühüm mərhələ olmuşdur. Bu qərar Ordubadın özünəməxsus memarlıq üslubunun, qədim məhəllə sisteminin, dar küçələrinin, yaşayış evlərinin, məscidlərinin, hamam və karvansaralarının Şərq şəhərsalma ənənələrinin dəyərli nümunəsi kimi beynəlxalq səviyyədə qəbul olunduğunu aydın şəkildə göstərir. Naxçıvanın qeyri-maddi mədəni irsi sahəsində növbəti mühüm mərhələ 2018-ci ildə Şərur yallılarının UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı Olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilməsi olmuşdur. “Yallı” (Köçəri, Tənzərə) adı ilə qeydə alınan bu qədim xalq rəqsləri, xüsusilə Şərur bölgəsinin zəngin folklor və mərasim ənənələrini dünya miqyasında tanıtmışdır.

Daha yeni və mühüm hadisələrdən biri isə 28 sentyabr 2024-cü ildə Gəmiqaya və Göygöl Tarixi-Mədəni və Təbii Kompleksinin UNESCO-nun İlkin Siyahısına daxil edilməsi olmuşdur. Ordubad rayonu ərazisində yerləşən bu kompleks minilliklərə aid qayaüstü rəsmləri, qədim insan məskənlərinə dair arxeoloji izləri və zəngin təbii landşaftı ilə Naxçıvanın ən qədim sivilizasiya ocaqlarından biri kimi xüsusi əhəmiyyət daşıdığını bir daha təsdiqləyir. Gəmiqaya petroqlifləri burada yaşamış qədim insanların düşüncə tərzini, inanclarını, məişətini və təbiətlə münasibətlərini əks etdirən unikal tarixi qaynaq kimi xüsusi əhəmiyyət daşıyır.

Nəhayət, 11 fevral 2026-cı ildə Ordubad Tarixi-Memarlıq Qoruğunun ICESCO-nun İslam Dünyası İrsinin İlkin Siyahısına daxil edilməsi bu qədim şəhərin beynəlxalq miqyasda daha geniş tanınmasının mühüm mərhələsinə çevrilmişdir.

Bu qərar Ordubadın yalnız UNESCO çərçivəsində deyil, bütövlükdə, İslam memarlıq və şəhərsalma irsinin mühüm nümunələrindən biri kimi qəbul olunduğunu göstərir. Eyni zamanda bu fakt Naxçıvanın zəngin tarixi-mədəni irsinin dünya miqyasında yüksək qiymətləndirilməsinin növbəti bariz nümunəsidir.

***Gülxarə ƏHMƏDOVA***
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***





# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti

## Naxçıvanda gənclər üçün tədbirlər keçirib



Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin təşkilatçılığı ilə Naxçıvanda tədbirlər keçirilib. Əvvəlcə Dövlət Xidmətinin Naxçıvan şəhəri və Babək rayonundan olan çağırışçıların müddətli həqiqi hərbi xidmətə təntənəli surətdə yola salma mərasimi təşkil edilib.

Tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini, icra başçısının vəzifələrini müvəqqəti icra edən Əhməd Vəliyev, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti aparatının idarə rəisi, polkovnik-leytenant Füzuli İsmayılov, Naxçıvan Hərbi Prokurorunun böyük köməkçisi, ədliyyə kapitanı Vilayət Seyidov, həmçinin çağırışçı və valideynlər çıxış ediblər.

Sonra Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularının nümunəvi nümayişi göstərilib. Rəsmi hissə bitdikdən sonra hərbi xidmətə yola düşən çağırışçılar Vətənə şərəflə xidmət edəcəklərinə söz verib, hərbi hissələrə yola salınıblar.

Daha sonra Naxçıvan Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə gənclər üçün "Vətənpərvər Azərbaycan gəncliyi – Sağlam gənclik, sağlam gələcək" mövzusunda görüş keçirilib. Görüşdə açılış nitqi ilə çıxış edən Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Gülxanım Orucova belə tədbirlərin gənclərdə vətənpərvərlik hissinin artmasına müsbət təsir göstərdiyini bildirib.

Tədbirdə çıxış edən Dövlət Xidmətinin Çağırışaqədərki hazırlıq idarəsinin rəisi, polkovnik-leytenant Füzuli İsmayılov müharibə zamanı gənclərin vətənpərvərliyindən, sabahın əsgəri olacaq çağırışçıların fiziki və psixoloji statuslarının yüksək səviyyədə saxlanılmasından, həmçinin yeniyetmə və gənclər arasında sağlam həyat tərzinin təbliği, onların həyat üçün zərərli vərdişlərdən uzaqlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb.

Dövlət Xidmətinin İctimaiyyətlə iş və beynəlxalq əlaqələr şöbəsinin rəisi Pərviz Sədrəddinov ali məktəbə daxil olmağa hazırlaşan gənclərə tövsiyə və məsləhətlərini verib. Həmçinin xaricdə təhsil, təhsilə görə verilən möhlət barədə də geniş məlumat çatdırıb.

Daha sonra Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsi Naxçıvan Şəhər İdarəsinin rəisi vəzifələrini müvəqqəti icra edən, polkovnik-leytenant Sultan Zamanov ilkin hərbi qeydiyyat, tibbi şəhadətləndirmə, çağırışçıların hüquq və vəzifələri barədə geniş məlumat verib və tədbir iştirakçılarını maraqlandıran sualları cavablandırıb.

Tədbirdə Vətən müharibəsi iştirakçıları və şəhid ailələri də çıxış edərək öz təəssüratlarını bölüşüblər. Rəsmi hissədən sonra konsert proqramı keçirilib.

Qeyd edək ki, analoji tədbirlər ölkənin bir sıra rayonlarında təşkil edilib və növbəti aylar ərzində davam etdirilməsi nəzərdə tutulur.











## Fatimə Bağırzadə beynəlxalq turnirin qalibi olub




Azərbaycan Karate Federasiyasının təşkilatçılığı ilə 10-12 aprel 2026-cı il tarixlərdə Bakı şəhərində yerləşən Sərhədçi İdman Mərkəzində "Grand Prix" beynəlxalq karate turniri keçirilib. Turnirdə 6 ölkədən, ümumilikdə, 700-ə yaxın idmançı mübarizə aparıb.

Naxçıvan Muxtar Respublikasından yarışda "Naxçıvan" karate klubunun idmançıları təmsil olunublar. Klubun üzvlərindən Fatimə Bağırzadə 10-11 yaş kateqoriyasında 44 kq çəki dərəcəsində birinci yerin sahibi kimi turnirin qızıl medalına layiq görülüb. Digər idmançı Sona Nəcəfbəyli (8-9 yaş, -32 kq) isə turniri üçüncü yerdə başa vurub.

Əlavə edək ki, beynəlxalq yarışın ardınca 2-ci liqa (həvəskarlar) üzrə turnir təşkil olunub. Həmin turnirdə Hüseyn Qafarlı (10-11 yaş, +50 kq) birinci, Damla Tağızadə (10-11 yaş, -44 kq) ikinci yerə, Fuad Sadiqov (10-11 yaş, -40 kq) və Yusif Tağıyev (10-11 yaş, -40 kq) isə üçüncü yerə sahib olublar.

### *İtmişdir*

Culfa rayonu, Qazançı kəndində yaşamış Əliyeva Tükəzban Baxşəli qızına məxsus JN-70$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şıxmahmud kəndində yaşamış Yusifova Zəhra İsmayıl qızının adına olan JN-174$^{A}$ nömrəli, 10311018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Sədərək kəndində yaşamış Zamanov Dünyamalı İsmayıl oğlunun adına verilmiş JN-2756$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 1-ci küçə 74 ünvanında Mirzəyev Abdulla Niftalı oğlunun adına olan 3522 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Əbilova (Abdinova) Telli İsa qızının adına Naxçıvan Regional Peşə Tədris Mərkəzi tərəfindən verilmiş (daxil olduğu il – 15 mart 2013) 20 may 2013-cü ildə bitirdiyi bərbər-vizajist-manikürçü peşəsinə aid 001029 nömrəli sertifikat itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini İbrahimova Fatma Əhəd qızının adına olan evin 10493 nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Kırna kənd sakini Abdullayev Yolçu Heydər oğluna məxsus JN-182$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Hüseynov İrşad Tofiq oğlunun adına olan Ordubad şəhəri, Füzuli küçəsi 7 ünvanında yerləşən evin 141 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Anaqut kəndində yaşamış Mirzəyeva Gövhər Hüseyn qızının adına olan JN-196$^{A}$ nömrəli, 10708028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Azadkənd sakini Əsədov Xaliq Hacı oğlunun adına olan JN-308 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Vənənd kəndində yaşamış İmanov Mustafa Qafar oğlunun adına olan JN-847$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Sərxanlı kəndində yaşamış Əhmədov Cəbrayıl Teymur oğluna məxsus JN-91$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çəmənli kənd sakini Nəbiyev Fəti Məmməd oğluna məxsus 102013001308 reyestr nömrəli torpaq sahəsinin plan-ölçüsü və çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çərçiboğan kənd sakini Məmmədov Murad Fətulla oğlunun adına verilmiş JN-783 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Maxta kənd sakini Hüseynova Nubar İsmayıl qızının adına verilmiş JN-614 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Cəhri qəsəbəsində Quliyev İlham Yusif oğluna məxsus olan JN-2026$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor:
RƏMZİ TAHİRLİ

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 77

Nömrəyə məsul: Zəhra Vəliyeva, Günay Hacıyeva, Rafiq Təhməzov
Dizayner: Həbibə Allahverdiyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.